*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

ASCO

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

12 mart 2020-ci il № 17-20 (9395) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### ASCO-nun bütün müəssisə və təşkilatlarında, donanmalarında maarifləndirmə və dezinfeksiya işləri aparılır



***Koronavirusla bağlı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) bütün müəssisə və təşkilatlarında əks-epidemik profilaktik tədbirləri davam etdirir.***

Müəyyənləşdirilmiş qrafikə uyğun olaraq ASCO-ya məxsus Azərbaycan Dövlət Dəniz Akademiyasında, Akademiyanın tələbə yataqxanasında, Azərbaycan Dənizçilər Kollecində, Təlim -Tədris Mərkəzində, "Xəzər" və "Dalğa" uşaq bağçalarında dezinfeksiya işləri aparılıb.

Səh. 2

### ASCO-nun növbəti 10 il üçün strateji inkişaf planı hazırlanır



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) 2020-2030-cu illəri əhatə edən strateji inkişaf planı hazırlanır. Yeni strateji inkişaf planının hazırlanması beynəlxalq miqyasda tanınan və böyük nüfuza malik "McKinsey" şirkətinə həvalə olunub.***

ASCO ilə "McKinsey" arasında bağlanmış müqaviləyə əsasən icraçı tərəfin ekspertləri və ASCO rəhbərliyi arasında sənədin prioritet istqamətlərinin müzakirəsi olub.

Səh. 3

### ADDA-da tədrisin keyfiyyətinin artırılması üçün çöx iş görülür



***Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) Elmi Şuranın növbəti iclası keçirilib. Bu dəfəki iclasda Şura üzvlərindən başqa Akademiyanın strukturuna daxil olan şöbələrin rəhbərləri də iştirak ediblər.***

İclasa sədrlik edən ADDA-nın tədris və tərbiyə işləri üzrə prorektoru, professor Zahid Şərifov gündəlikdə duran məsələləri iclas iştirakçıların diqqətinə çatıdırıb.

Səh. 4

### 29 qardaşın bir bacısı



***Azərbaycanda gəmiqayırma və gəmi təmirinə tələbat həmişə olub. Ölkəmizdə gəmi təmiri işləri 20-ci əsrin əvvəllərindən yerinə yetirilməyə başlanıb. Bundan başqa, hazırda Azərbaycanda yerli və xarici gəmiçilik şirkətlərinin sifarişi əsasında gəmi tikintisi ilə məşğul olan Bakı Gəmiqayırma Zavodu da fəaliyyət göstərir.***

Səh. 5

### NOVRUZ GƏLİR, YAZ GƏLİR



***Torpağın və həyatın oyandığı İlaxır çərşənbə - Torpaq çərşənbəsi bu il martın 17-sinə təsadüf edəcək.***

İlaxır çərşənbə Su, Od və Yel çərşənbələrindən sonra gəlir. İnanca görə, sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır.

Səh. 6

### Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya kuboku "Tokio 2020"yə lisenziya xarakteri daşıyacaq

*2019-cu ildə uğurla təşkil edilmiş bədii gimnastika üzrə dünya və Avropa çempionatları da daxil 4 beynəlxalq yarışdan sonra Azərbaycan Gimnastika Federasiyası (AGF) cari ildə də bu növ üzrə yarışlara hazırlaşır.*

Səh. 8




# Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib





***Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq deputatları təbrik edib. Bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, parlamentin ilk iclasını ən yaşlı deputat aparır və bu missiya deputat Ziyad Səmədzadəyə nəsib olub.

X X X

İclasa sədrlik edən Ziyad Səmədzadə altıncı çağırış Milli Məclisin ilk iclasını açıq elan etdi.

Z.Səmədzadə altıncı çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxudu.

X X X

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında nitq söylədi.

Dövlətimizin başçısı altıncı çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev beşinci çağırış Milli Məclisin deputatlarına səmərəli fəaliyyətlərinə görə təşəkkür etdi. Azərbaycan Prezidenti altıncı çağırış Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. 1300-dən çox namizədin mübarizə apardığı seçkilərin uğurla keçdiyini deyən Prezident İlham Əliyev bütövlükdə seçkilərin xalqımızın iradəsini tam ifadə etdiyini söylədi.

Prezident İlham Əliyev onu da vurğuladı ki, seçkilərdə bütün siyasi qüvvələr iştirak ediblər. Nəticədə altıncı çağırış Milli Məclis çoxpartiyalı məclis kimi formalaşır. Seçkilərdə Yeni Azərbaycan Partiyasının yerlərin əksəriyyətini əldə etdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyi və komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar.



Deputatların qarşısında duran vəzifələrdən danışan Prezident İlham Əliyev mövcud qanunların təkmilləşdirilməsinin və qəbul olunmuş qanunların icrasına nəzarətin əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı vurğuladı ki, qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsi, milli dəyərlərin qorunması, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasəti nəzərə alınmalıdır. Prezident İlham Əliyev qeyd etdi ki, deputatlar seçicilərlə daim təmasda olmalı, onların problemləri ilə maraqlanmalıdırlar. Dövlətimizin başçısı Milli Məclis üzvlərinin beynəlxalq qurumlarda Azərbaycan həqiqətlərini daha geniş şəkildə təbliğ etmələrinin vacibliyindən danışdı, Dağlıq Qarabağ məsələsində ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınmasında fəallığı artırmağın zəruriliyindən söhbət açdı. Prezident İlham Əliyev dedi ki, seçkilər Azərbaycanda aparılan siyasi kursa alternativ olmadığını bir daha sübut etdi. Bu gün ölkəmizdə xalq sabitlik və təhlükəsizlik şəraitində yaşayır. Son 16 ildə Azərbaycanda əldə edilən iqtisadi inkişafın dünyada təkrarı yoxdur.

Sonda Prezident İlham Əliyev ölkəmizin müstəqillik yolu ilə bundan sonra da uğurla addımlayacağını vurğuladı.

X X X

İclasın sədri Ziyad Səmədzadə gündəliyi təqdim etdi.

Gündəlik təsdiqləndikdən sonra Milli Məclis Sədrinin seçilməsi məsələsi müzakirə olundu.

Qeyd edildi ki, Yeni Azərbaycan Partiyası tərəfindən deputat Sahibə Qafarovanın Milli Məclisin sədri kimi namizədliyi irəli sürülüb.

Sahibə Qafarova Yeni Azərbaycan Partiyasının Sədrinə və partiya üzvlərinə təşəkkürünü bildirdi.

Səsvermə oldu və 116 səs lehinə olmaqla, Sahibə Qafarova Milli Məclisin sədri seçildi.

X X X

Milli Məclis Sədrinin birinci müavini vəzifəsinə deputat Əli Hüseynli seçildi.

Deputatlar Adil Əliyev və Fəzail İbrahimli Milli Məclis Sədrinin müavinləri seçildilər.

X X X

Milli Məclisin Sədri Sahibə Qafarova İntizam Komissiyasının və Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adlarını elan etdi. Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər.

X X X

Milli Məclisin Sədri Sahibə Qafarova komitə sədrliyinə namizədlikləri irəli sürülən deputatların adlarını oxudu.

Məsələ səsə qoyularaq qəbul edildi.

Deputat Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Tahir Mirkişili İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Siyavuş Novruzov Regional məsələlər komitəsinin, Bəxtiyar Əliyev Elm və təhsil komitəsinin, Qənirə Paşayeva Mədəniyyət komitəsinin, Zahid Oruc İnsan hüquqları komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov Səhiyyə komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin, Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar komitəsinin, Adil Əliyev Gənclər və idman komitəsinin sədrləri təsdiq edildilər.

İclasda komitə sədrlərinin müavinləri də təsdiq olundu.

Bununla da altıncı çağırış Milli Məclisin birinci iclası başa çatdı.

# Makroiqtisadi sabitlik qorunacaq

***Martın 10-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirədə qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyata təsirinə dair məsələlər müzakirə edilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Baş Nazirin köməkçisi Fəxri İsmayılov iştirak ediblər.

Dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata mənfi təsirlərinin artdığı şəraitdə əsas neft ixracatçıları arasında hasilatın həcmi barədə fikir ayrılığının yaranması dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasına səbəb olub.

Azərbaycan hökuməti dünya iqtisadiyyatında gedən prosesləri diqqət mərkəzində saxlayaraq baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb. Bu ssenarilərə uyğun olaraq, zərurət yarandığı hallarda müvafiq sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək.

Qeyd edək ki, dünyada baş verən neqativ iqtisadi meyillər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirir, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də müsbət inkişaf dinamikası davam edir. Belə ki, yanvar-fevral aylarında qeyri-neft ÜDM-i 6,7 faiz, ÜDM isə 2,8 faiz artıb.

Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. 2019-cu ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100 faizini ötür, valyuta ehtiyatları xarici dövlət borcunu 6 dəfə üstələyir.

Valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar vardır. Həm monetar, həm də iqtisadi siyasətin digər istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər inflyasiyanın hədəflənən səviyyədə saxlanılmasını təmin edəcək.

Eyni zamanda, dövlət büdcəsinin maliyyə dayanıqlılığının daha da gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək, xərclərin optimallaşdırılması və səmərəli istifadəsi üzərində ciddi nəzarət davam etdiriləcək.

Vurğulanmalıdır ki, 2020-ci il üçün qəbul edilmiş dövlət büdcəsinin xərcləri, o cümlədən bütün sosial layihə və öhdəliklər nəzərdə tutulan qrafik üzrə tam həcmdə və vaxtında icra olunur, heç bir sosial layihənin təxirə salınması nəzərdə tutulmur.

Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkədə iqtisadi artıma və məşğulluğa mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə olunacaq.

Bununla yanaşı, istehlak bazarına ciddi nəzarət edilir və vəziyyətdən sui-istifadə etməklə baş verə biləcək süni qiymət artımına və əsassız qıtlığa qarşı sərt tədbirlər görüləcək.

# ASCO-nun bütün müəssisə və təşkilatlarında, donanmalarında maarifləndirmə və dezinfeksiya işləri aparılır










***Koronavirusla bağlı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) bütün müəssisə və təşkilatlarında əks-epidemik profilaktik tədbirləri davam etdirir.***

Müəyyənləşdirilmiş qrafikə uyğun olaraq ASCO-ya məxsus Azərbaycan Dövlət Dəniz Akademiyasında, Akademiyanın tələbə yataqxanasında, Dənizçilik Kollecində, Təlim-Tədris Mərkəzində, "Xəzər" və "Dalğa" uşaq bağçalarında, gəmilərində ... dezinfeksiya işləri aparılıb.

Dezinfeksiya bu sahədə ixtisaslaşmış və müvafiq lisenziyaya malik şirkət tərəfindən həyata keçirilib. Proses ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin əməkdaşlarının nəzarəti ilə yerinə yetirilib.

ASCO rəhbərliyinin qərarına əsasən, şirkətdə mütəmadi olaraq aparılan dezinfeksiya işlərinə nəzarət gücləndirilib. Tapşırığa uyğun olaraq dezinfeksiya tədbirləri xüsusi qrafiklə gəmilərdə ayda bir dəfə, sahildə yerləşən strukturların inzibati binaları və ərazilərində isə iki dəfə yerinə yetirilir. Səlahiyyətli qurumların göstəriş və təlimatlarına müvafiq olaraq sanitar-gigiyenik tədbirlərin təkrarlanması da diqqətdə saxlanılır.

Dezinfeksiya işləri ilə paralel ASCO-nun struktur idarələrində əməkdaşlar arasında maarifləndirmə tədbirləri də davam etdirilir. "Dənizçilər poliklinikası" MMC-nin həkimləri mütəmadi olaraq virusun əlamətləri və virusdan qorunma yolları barədə əməkdaşlara məlumat verirlər. ASCO-nun hər iki donanmasında - Dəniz Nəqliyyatı Donanması və Xəzər Dəniz Neft Donanmasında da belə maarifləndirici tədbirlər keçirilib.

# Adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir

***Ümumdünya Səhiyyə Təşkilatı son günlərdə koronavirus xəstəliyinə yoluxma hallarının artmasını, virusun coğrafiyasının genişlənməsini nəzərə alaraq dövlətlər tərəfindən müvafiq preventiv tədbirlərin gücləndirilməsi, eləcə də kütləvi tədbirlərin təxirə salınması təşəbbüsü ilə çıxış edib.***



Nazirlər Kabineti yanında operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib. Bununla əlaqədar bildiririk ki, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilir.

Operativ qərargah mütəxəssislər ilə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər-hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır.

Həmçinin adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlarımızı bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda, risk qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə (qoruyucu tibbi maska, xüsusi qoruyucu eynək, dezinfeksiyaedici vasitələrdən istifadə və s.) çağırırıq.

# "ASCO Nəqliyyat" MMC-nin inzibati binası və ərazisi ilə yanaşı, bütün nəqliyyat vasitələri də dezinfeksiya edilib

***Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) profilaktik tədbirləri davam etdirir.***







Müəyyənləşdirilmiş qrafikə uyğun olaraq növbəti dezinfeksiya işləri "ASCO Nəqliyyat" MMC-də aparılıb. MMC-nin inzibati binası və ərazisi ilə yanaşı, bütün nəqliyyat vasitələri də dezinfeksiya edilib.

Dezinfeksiya bu sahədə ixtisaslaşmış və müvafiq lisenziyaya malik şirkət tərəfindən həyata keçirilib.

# Koronavirus infeksiyası Günəş şüalarının və kimyəvi dərman maddələrinin təsirindən məhv olur

***Hazırda bir çox ölkədə yayılan koronavirus yeni bir infeksiya deyil. Bu xəstəlik ilk dəfə 2012-ci ildə aşkarlanıb. Alimlər mikroskop altında baxarkən nüvənin ətrafında zülal və lipidlərin tac əmələ gətirdiyini görüblər. "Korona" latın sözü olub, tac deməkdir.***

Koronavirus kəskin infeksion virus infeksiyasıdır, əsasən antroponozdur, yəni insanlar xəstələnirlər. Lakin buna baxmayaraq, infeksiyanın mənbəyi heyvanlar, quşlar da ola bilirlər. Xəstəlik əsasən yuxarı tənəffüs yollarını zədələyib kəskin ağır formalı pnevmoniya əmələ gətirir. Virusların ölçüləri 120-160 nanometrdir, onlar ətraf mühitə qarşı dözümsüzdürlər, asanlıqla məhv olurlar, açıq sahələrdə iki saat yaşamaq qabiliyyətləri var. Günəş şüalarının və kimyəvi dərman maddələrinin təsirindən asanlıqla, 56° C temperaturda ani məhv olurlar. Kanalizasiya suyunda belə cəmi 4 saat yaşaya bilirlər. Havalar isinəndən sonra həmin infeksiyanın azalması ehtimalı var.

Bu barədə AZƏRTAC-a Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının yoluxucu xəstəliklər şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Sədrəddin Atakişizadə məlumat verib.

"Virusa yoluxma əsasən hava-damcı yolu ilədir. Mədə-bağırsaq sistemi vasitəsilə yoluxma halları olsa da, buna çox az rast gəlinir. Yuxarı tənəffüs yollarına düşən virus çoxalır və yavaş-yavaş ağciyərlərə doğru hərəkət edir. Ağciyərlərə düşən həmin törədicilər orada artıb-çoxalır, pnevmoniyaya çevrilir", - deyə mütəxəssis bildirib.

Həkim-infeksionistin sözlərinə görə, xəstəliyin klinik əlamətləri hərarətin qalxması, boğaz ağrısı, udma aktının çətinləşməsi, halsızlıq, ümumi zəiflik, iştahasızlıq, mədə bulanması və tənəffüs aktının çətinləşməsidir.

Hazırda ölkəmizdə mövsümü qripə yoluxanlar var. Bu, mövsümlə əlaqədardır. Adi qrip də, koronavirus da virus infeksiyalarıdır, eyni klinik əlamətləri verirlər. Buna görə də bəziləri adi qripi koronavirus hesab edirlər.

Profilaktikanın müalicədən qat-qat asan olduğunu bildirən şöbə müdiri qeyd edib: "Profilaktik tədbirlər vaxtında görülsə, virus infeksiyalarına yoluxma halları azalar. Buna görə də xəstələr viruslarını ətrafa yaymamaq üçün çoxqatlı marladan hazırlanmış maska taxsınlar. Asqırıb, öskürərkən əl dəsmalından istifadə olunsun və ya sağ ya sol qolu 90 dərəcə qatlayaraq dirsək büküşünə asqırmaq lazımdır ki, ətrafa yayılmasın. Ələ asqırmaq olmaz. Həmin viruslar ələ düşə və əl gözə dəyərkən virus gözün selikli qişasına daxil ola və yenidən xəstələndirə bilər. Kollektivdə, ailədə xəstə olarsa, onların izolyasiyası lazımdır. Narahatlıq çox olarsa, həkimə müraciət edilməlidir.

Bol maye qəbulu məsləhət görülür. Yuxarı tənəffüs yollarına, ağıza düşən virusları maye mədəyə aparır, mədənin turş mühiti onların çoxunu məhv edir. Qrip əlamətləri olan insanlar bir litr suya, 3-4 qaşıq duz, 10-15 damcı yod əlavə etsinlər. Həmin məhlulu 10-15 dəqiqədən bir burunlarına damızdırsınlar, ağızlarını qarqara etsinlər, ya da az miqdarda içsinlər.

Digər profilaktik tədbirlərdən biri əllərin yuyulmasıdır. Əlləri heç olmazsa 20 saniyə axar suyun altında sabunla yumaq lazımdır. Xəstə insanlarla yaxından təmasda olmamaq tövsiyə olunur".

Sədrəddin Atakişizadə qeyd edib ki, respublikada bir neçə nəfərdə koronavirus infeksiyasının olması təsdiq olunsa da, səhiyyə sistemi tərəfindən müvafiq tədbirlər görülür. Tədrisin dayandırılması, dezinfeksiya işlərinin aparılması, digər ölkələrlə sərhədlərin bağlanması bu infeksiyaların artmağının qarşısını alacaq: "Respublikada koronavirusla mübarizədə həm paytaxtda, həm də bölgələrdə bir neçə tibb ocağı ayrılıb, orada xüsusi tibbi heyət fəaliyyət göstərir. Xəstələrlə kontaktda olan insanlar nəzarətdə saxlanılır. Xəstəliyin inkubasiya dövrü 14 günə qədərdir. İmmuniteti yüksək olanlar bu virusa yoluxmaya bilərlər. Ona görə də qidalanmaya fikir verilməlidir, immun sistemini gücləndirən, təmiz, təbii, zülallı və karbohidratlı qidaların qəbulu artırılmalıdır. Vitamin balansının artırılması, meyvə-tərəvəz, göyərti qəbulunun çoxaldılması məsləhət görülür".

# Gəmi heyətinə sanitar-gigiyenik vəziyyəti nəzarətdə saxlamaqla bağlı lazımi tövsiyələr verilib

***Koronavirus infeksiyasının Azərbaycanda yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə görülən qabaqlayıcı tədbirlər çərçivəsində martın 9-da Dövlət Dəniz Agentliyinin inzibati binasında, agentliyin Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin, Nəqliyyat və Texniki – Təminat İdarəsinin inzibati binasında dezinfeksiya işləri həyata keçirilib.***







Dövlət Dəniz Agentliyində sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır, əməkdaşlar arasında bu istiqamətdə mütəmadi olaraq profilaktik söhbətlər edilir, maarifləndirmə işləri görülür.

Həmin gün, həmçinin Dövlət Dəniz Agentliyinin nümayəndələrinin iştirakı ilə Dənizkənarı Bulvar İdarəsinin "Mirvari" gəzinti gəmisində də dezinfeksiya işləri həyata keçirilib. Gəmi heyətinə sanitar-gigiyenik vəziyyəti nəzarətdə saxlamaqla bağlı lazımi tövsiyələr verilib.




# ASCO-da koronavirusla bağlı "Qaynar xətt" və qərargah fəaliyyət göstərir

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) məxsus "Dənizçilər Poliklinikası" MMC-də koronavirusla bağlı (050) 274 30 82 nömrəli "Qaynar xətt" fəaliyyət göstərir.***

"Qaynar xətt" vətəndaşların maarifləndirilməsi, məlumatlandırılması və virusla bağlı suallarının cavablandırılması məqsədilə yaradılıb. Zənglər günün 24 saatı ərzində qəbul olunur və müraciətlər operativ şəkildə cavablandırılır.

ASCO-da "Qaynar xətt"lə yanaşı, koronavirusla bağlı rəhbər şəxslərdən ibarət qərargah da yaradılıb.

# Qafqaz Müsəlmanları İdarəsi koronavirus xəstəliyi ilə bağlı tövsiyələrini açıqlayıb

***Qafqaz Müsəlmanları İdarəsi koronavirus xəstəliyi ilə bağlı tövsiyələrini açıqlayıb.***

Tövsiyələrdə deyilir: "Son zamanlarda dünyanın bir çox ölkəsində koronavirus infeksiyasının yayılması və fəsadlarının qarşısının alınması məqsədilə qonşu dövlətlərdə olduğu kimi, Azərbaycanda da profilaktik tədbirlərə start verilib, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altına alınıb. Dövlətimiz bu xəstəliyin ölkəmizdə yayılmasını önləmək üçün bütün mümkün tibbi-sanitar və ictimai təhlükəsizlik tədbirlərini həyata keçirir. Ölkə dindarlarının çoxsaylı müraciətlərini, bölgə qazıları və səlahiyyətli nümayəndələrimizin təkliflərini nəzərə alaraq Qafqaz Müsəlmanları İdarəsi (QMİ) koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlara tapşırıq və tövsiyələrlə müraciət edir: Allahın haqq dini olan İslama görə insan həyatı ən yüksək dəyərə malikdir. İnsan həyatı və sağlamlığı müqəddəs dinimizin hər zaman diqqət mərkəzində olmuş, Allah-Təala nəinki başqasının canına qəsd etməyi, hətta insanın öz canını təhlükəyə atmasını qəti şəkildə qadağan etmişdir. Əbəs yerə deyil ki, "Qurani-Kərim"in "Bəqərə" surəsinin 195-ci ayəsində belə buyurulub: "...öz əllərinizlə özünüzü təhlükəyə atmayın...".

İnsan sağlamlığının qorunması, bəzi yoluxucu xəstəliklərin təhlükəli olması barədə fikirlər Həzrət Peyğəmbərin (s) məşhur tibbi-nəbəviyə dair hədislərində nəql olunub. Rəsulullah (s) buyurub ki, "Allahdan bağışlanma və sağlamlıq diləyin. Həqiqətən də, insana imandan sonra sağlamlıqdan üstün bir nemət verilməyib"; "Əgər bir ərazidə taun xəstəliyinin olduğunu eşitsəniz, heç vaxt ora daxil olmayın. Əgər siz o yerdə olsanız, o zaman oradan kənara çıxmayın"; "Xora xəstəliyinə tutulmuş adama çox tamaşa etməyin. Onlarla söhbət edərkən bir və ya iki nizə (3-4 metr aralıqda) məsafəsində uzaqda dayanın"; "Cüzam xəstəliyinə tutulmuş bir nəfər Peyğəmbərin (s) yanına gəlib ona beyət etmək istədikdə, Peyğəmbər (s) buyurdu: "Əl vermədən beyət et. Beyətini qəbul etdim".

Taun, vəba və xora xəstəlikləri dövrün yoluxucu xəstəliklərindən olduğu üçün hədislərdə məhz onların adı çəkilib. Başqa sözlə ifadə ilə desək, bunlar yoluxucu xəstəliklərin növlərindəndir və hədislərdəki tövsiyələr bütün yoluxucu xəstəliklərə şamil olur. Digər tərəfdən, mübarək hədislər təsdiq edir ki, insanlar həm özlərinin, həm də başqa şəxslərin sağlamlığı üçün Allah qarşısında məsuliyyət daşıyırlar.

QMİ bu müvəqqəti çətinlik dönəmində bərayi-ehtiyatən dindarlarımıza tövsiyə edir ki, həkimlərin məsləhətlərinə ciddi şəkildə riayət olunsun, məscidlər, ziyarətgahlar, dini tədris müəssisələri və Quran kurslarında dezinfeksiya işlərinin aparılması üçün müvafiq dövlət tibbi-sanitariya müəssisələrinə müraciət edilsin, ələlxüsus namaz zalları, dəstəmazxana, meyitxana və sanitar qovşaqlarının təmizlənməsinə xüsusi diqqət yetirilsin. Rica edirik ki, uzaq yoldan gələnlər, yaşlı insanlar, eləcə də özündə soyuqdəymə əlamətləri hiss edən xəstə şəxslər namazlarını evlərində qılsınlar, məscidə gələn dindarlar şəxsi təsbehlərindən, canamazlarından, möhürlərindən istifadə etsinlər, mümkün qədər dəstəmazlarını evdə alsınlar. Eyni zamanda, məscidə gələn şəxslər bir-biri ilə yaxın təmasdan, əl görüşmələrindən çəkinsinlər.

QMİ kütləvi yoluxma riskini nəzərə alaraq vətəndaşlarımızın sağlamlığı naminə müvəqqəti olaraq məscidlərimizdə moizələrin və birgə ibadətlərin təxirə salınmasını, camaat namazlarının uzadılmadan icra olunmasını, xütbələrin qısaldılmasını din xadimlərimizə və dindarlarımıza tövsiyə edir. İmkan daxilində dindarlarımızın evlərində fərdi qaydada namaz qılmasını, sanitar-epidemioloji vəziyyət imkan vermədiyi təqdirdə məsciddaxili bütün tədbirlərin, mövlud, şəhadət, ehsan məclislərinin təxirə salınmasını məsləhət görürük. Həqiqətən də, başqalarını yoluxucu xəstəliklərə düçar etməmək üçün Cümə namazı və digər mərasimləri müəyyən bir müddətə təxirə salmaq şəriətimizə uyğundur, lakin bu heç bir şəkildə məscid və ziyarətgahların bağlanması anlamına gəlmir. Qazilərimiz və din xadimlərimiz öz yerlərində dindarlara və icma üzvlərinə mövcud vəziyyətlə əlaqədar mövqeyimizi və tövsiyələrimizi çatdırmağa məsuldurlar.

QMİ əmin olduğunu bildirir ki, dindarlarımız cəmiyyətimiz və ailələrimiz üçün təhlükəli olan məqamda təlaş və vəsvəsəyə qapılmadan tibbi-profilaktik tədbirlərə riayət edəcək, vacib saydığımız tövsiyələri anlayışla qarşılayacaqlar. Bu müvəqqəti çətinlik dövrümüzdə tövsiyələrimizi nəzərə almayanlar, təəssüf ki, mövcud vəziyyətin məsuliyyətini dərk edə bilməyənlərdir. Ümid edirik ki, Allah-Təala tezliklə xalqımızın üzərindən bu bəlanı dəf edəcək, səbat və rifahımız bərqərar olacaqdır, İnşallah".

# ASCO-nun növbəti 10 il üçün strateji inkişaf planı hazırlanır

***"Azərbaycan Xəzər Dəniz Gəmiçili-yi" QSC-nin (ASCO) 2020-2030-cu illəri əhatə edən strateji inkişaf planı hazırlanır. Yeni strateji inkişaf planının hazırlanması beynəlxalq miqyasda tanınan və böyük nüfuza malik "McKinsey" şirkətinə həvalə olunub.***

ASCO ilə "McKinsey" arasında bağlanmış müqaviləyə əsasən icraçı tərəfin ekspertləri və ASCO rəhbərliyi arasında sənədin prioritet istqamətlərinin müzakirəsi olub.

Müzakirələrdə bildirilib ki, növbəti 10 ili əhatə edən strateji inkişaf planında ASCO-nun yeni bazarlara daxil olma imkanları barədə geniş təhlil yer alıb. Bu planın həyata keçirilməsi ilə şirkətin Xəzərlə yanaşı, Xəzərdənkənar mövqeyi daha da güclənəcək.





Planın hazırlanması Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin çoxillik təcrübəsinə əsaslanaraq ASCO-nun əməkdaşlarının iştirakı ilə həyata keçirilir.

Qeyd edək ki, hazırda ASCO-nun beynəlxalq sularda 14 gəmisi üzür. Azərbaycan bayrağı altında istismar olunan bu gəmilərdən 12-si quru yük gəmisi, ikisi tankerdir.

# Tələbələrə təqaüdlərin təyin olunması və ödənilməsi qaydasında dəyişiklik edilib



***Nazirlər Kabineti "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nda dəyişiklik edib.***

Bu Qayda əyani təhsil alan doktorantlara, ali təhsil, orta ixtisas, peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlərin təyin edilməsi və ödənilməsi qaydalarını müəyyənləşdirir.

Dəyişikliyə əsasən, bu Qayda tədrisə qismən cəlb olunma (parttime) növü üzrə təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlərin təyin edilməsi və ödənilməsi qaydalarını əhatə etməyəcək.

Qaydaya edilən əlavəyə əsasən isə cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzrsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış və akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək həmin fənni (fənləri) dinləmədən imtahan verərək və ya yay semestrində dinləyərək müvəffəq qiymət almış tələbə növbəti semestrdə təqaüd almaq hüququ olan tələbələrin siyahısına daxil edilməyəcək.

# Magistratura təhsili ilə bağlı qaydalar dəyişdi

***Nazirlər Kabineti "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edib.***

Bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb.

Dəyişikliklə magistratura səviyyəsində əyani (tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime) və qiyabi təhsilalma formaları müəyyən edilib.

Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddəti 1,5-2 ildir (qiyabi forma üzrə təhsil müddəti əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddətindən altı ay artıqdır). Bu müddət ayrı-ayrı ixtisaslaşmaların təhsil proqramları ilə müəyyənləşdirilir. Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə qismən cəlb olunma (parttime) növü üzrə isə təhsilin müddəti təhsilalanın fərdi tədris planına uyğun olaraq müəyyənləşdirilir.

Qeyd olunub ki, tabeliyindən və mülkiyyət



formasından asılı olmayaraq, respublikanın bütün ali təhsil müəssisələrində və AMEA-da magistratura təhsili ödənişli əsasla və dövlət sifarişi əsasında həyata keçirilə bilər. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrində, həmçinin AMEA-da ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Magistr təhsilinin məzmunu tədris prosesinin və elmi tədqiqat işlərinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ, laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmini, ixtisasın ixtisaslaşmaları üzrə təhsil proqramında qoyulan tələbləri əhatə edir.

Tədris prosesinin və elmi tədqiqat işlərinin planlaşdırılması, təşkili tədris planı (nümunəvi işçi və fərdi) və fənn proqramları və ona müvafiq hazırlanmış fənlər üzrə işçi proqramları əsasında həyata keçirilir. Bu planların forma və strukturu ali təhsil müəssisəsi və AMEA tərəfindən müəyyənləşdirilir.

Təhsil proqramlarında göstərilən fənlər üzrə proqramlar ali təhsil müəssisələri və AMEA tərəfindən hazırlanır, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir, tədris planlarına təhsil müəssisələri və AMEA tərəfindən daxil edilən seçmə fənlər üzrə proqramlar isə təhsil müəssisələri və AMEA tərəfindən təsdiq ediləcək.

Fənlər üzrə işçi proqramları (sillabuslar) isə ali təhsil müəssisəsi və AMEA tərəfindən hazırlanacaq və təsdiq ediləcək.

İşçi tədris proqramı (sillabus) — fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirilmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını əks etdirən sənəddir.

Magistratura səviyyəsində tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi (Avropa ölkələrində tətbiq olunan AKTS — Avropa Kredit Transfer Sistemi) ilə həyata keçiriləcək.

# Azərbaycandan keçən Yeni İpək yoluna fəlsəfi baxış

***Tarix təkrar olunur, lakin hər kəs üçün deyil. Bəzi xalqlar, millətlər tarixi proseslərə öz ənənəsindən, kökündən ayrılmadan qoşulur və istənilən şəraitdə öz milli kimliyini qorumağa çalışır. Onların bu proseslərdə ölçüsündən asılı olmadan öz səsi, öz mövqeyi olur.***

Bəziləri isə hansısa güclü bir tərəfin kölgəsində öz mövcudluğunun qayğısı ilə ümumi selə qoşulub gedir, hər şəraitə uyğun siması da dəyişə bilir. Tarix məhz birincilər üçün təkrar edilir. Azərbaycan məhz birincilərə aiddir və bu səbəbdən zaman-zaman tarixin hərlənən çarxının şahidi olur. Təkrarlanan səhifələrdən biri də İpək yoludur.

İslam dini və İpək yolunun istər ayrıca, istərsə də qarşılıqlı təsirinin tarixində Azərbaycanın da xüsusi yeri və rolu vardır.




### İpək yolu yalnız ticari, iqtisadi əlaqələr deyil, müəyyən ideyaların yayılma arealının göstəricisidir

Əsrlər əvvəl Şərqdən Qərbə və əksinə uzanan karvanlarla həm də alimlər, kitablar gedirdi - ipək-qumaşla bərabər hikmət də daşınırdı. Və bu, hər dövrdə belə olub - Antik dövrdə Qədim Misirdən, Babilistandan, Azərbaycandan, Ərəbistandan, Hindistandan, Həbəşistandan Pifaqor, Demokrit qiymətli "yükü" - hikməti öz vətəninə gətirəndə də, islam peyğəmbəri "elm arxasınca Çinə qədər gedin" deyə bəyan edəndə də, bu gün də.

Məsələn, məlum olduğuna görə, İpək yolu Çin ipəyinin Qərbə daşınmasına şərait yaratmaqla yanaşı, həm də Uzaq Şərqdə islam dininin yayılmasına bir yol açdı. Xatırladaq ki, Əbu Həfs Sührəvərdi Hindistanda (1234) sührəvərdiyyə təriqətini qurmuş, yaxud Mənsur Həllac orada islamın yayılmasında xüsusi rola malik olmuş və Əbul Muğis - "Xilaskarın atası" adını almışdır. Deməli, bu bir təsadüfdür ki, dünyada müsəlmanların daha sıxlıq təşkil etdiyi ölkələr məhz İpək yolu üzərində duranlardır.

Bəli, İpək yolunun ən vacib tərəflərindən biri onun məhz mənəvi, ideoloji mahiyyətə sahib olmasıdır. Belə ki, müəyyən məkanlar arasında iqtisadi əlaqələrin yaranması üçün ilk növbədə onlar eyni müstəvidə düşünüb, eyni ideyaları özləri üçün prioritet hesab etməlidirlər.

Xüsusilə vurğulayaq: eyni düşünmək deyil, eyni müstəvidə və eyni ideyalar haqqında düşünmək! İpək yolu fərqli tərəflər arasında qurulan bir ünsiyyət olduğuna görə qarşılıqlı zənginləşmə mümkündür. Bunu müəyyən mənada fərqlər arasındakı mübadilə prosesi, yaxud ortaq məxrəcin axtarılması da adlandırmaq olar.

İpək yolu ilə hansı ideyalar "daşına" bilər? Əslində sualın cavabı Pifaqorun, Platonun, yaxud Sührəvərdinin fəlsəfəsində əks olunub. Məhz zaman və məkan çərçivəsinə sığmayan, ümumbəşəri dəyərə sahib ideyalar İpək yolu boyunca fərqli millətləri, fərqli formasiyalı dövlətləri birləşdirə bilir. Eyni zamanda bu ideyalar həm də yolun ömrünü uzada bilir. Burada bir neçə məsələyə xüsusi diqqət yetirək.

İpək yolu elmi "oazislər" arasında əlaqədir, yəni artıq müəyyən bir səviyyəyə, inkişafa malik məkanlar arasında əlaqədir, əks halda bu, istismara, talana gətirib çıxarar. İpək yolu müəyyən məkanda doğulmuş ideyanın universallaşması vasitələrindən biridir. Yəni İpək yolu həmin ideyanın vətəni ilə yanaşı, onun zənginləşməsi və universallaşması trayektoriyasının da xəritəsidir. Deməli, hər "oazis"in orijinallığını, əhəmiyyətini nəzərə alaraq, onların ayrıca təsir qüvvəsini və bu təsirin düşüncə yükünü öyrənmək bütövün hissələrini öyrənməklə yanaşı, həm də aralarında bir müqayisə aparmaqla, əlaqə qurmaqla onların daha mütərəqqi tərəflərini ön plana çəkmək mümkündür.

İpək yolu boyunca daşınan universal ideyalar arasında islami dəyərlər, prinsiplər də olmuşdur, yaxud əksinə, tarix boyu islamın çiçəklənməsi və geniş yayılmasında İpək yolu xüsusi rol oynamışdır.

### Azərbaycan Yeni İpək yolunun "oazislərindən" biri kimi

Azərbaycan həmişə öz coğrafi mövqeyinə uyğun bir təfəkkürə malikdir: Qərbə nisbətdə Şərq dəyərlərinin, Şərqə nisbətdə də Qərbə məxsus keyfiyyətlərin daşıyıcısıdır. Bu xüsusiyyət onun bayrağında çox mükəmməl şəkildə rəmzləşib. Məsələn, XX əsrdə Qərbə məxsus Demokratik Respublika Şərqdə ilk dəfə Azərbaycanda - uzun illər islam mədəni bölgəsinin ən mütərəqqi məkanlarından birində elan edilib. Təbii ki, eyni təfəkkür XXI əsrdə də qorunub: 2012-ci ildə "Eurovision" musiqi yarışmasına, 2015-ci ildə Avropa Oyunlarına, 2017-ci ildə isə eyni uğurla İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etmək bu təfəkkürün məhsuludur. Başqa sözlə desək, Azərbaycan hər iki istiqamətdə gedən prosesə üzvi şəkildə nəinki qoşula bilir, üstəlik onu daha dolğunlaşdırır. Dediyimizdən çıxış edərək belə bir nəticəyə gəlmək olar ki, İpək yolunun istər iqtisadi, istərsə də ideoloji müstəvidə Şərqdən Qərbə və əksinə cərəyan edən proseslərdə dövlətlər bir əlaqələndirici kimi böyük əhəmiyyətə malikdirlər. Məsələn, bəzi dövlətlər sadəcə təhlükəsiz keçid rolunu oynayırsa, digəri bununla kifayətlənməyib, üstəlik bu prosesə öz bəhrəsini verir, onu zənginləşdirir. Azərbaycan ikinci növ ölkələrə aiddir.

Yeni İpək yolu gələcəkdə bütün dünyanı ehtiva edə biləcək "Bir kəmər - bir yol" layihəsi əsasında təşəkkül tapıb və Azərbaycan bu konsepsiyanı Qafqaz ərazisində dəstəkləyən ilk ölkələrdəndir. 2019-cu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşündə deyib: "... Azərbaycan lap əvvəldən Sizin təşəbbüsünüzü dəstəkləyib və bu layihəni bizim irəli sürdüyümüz təşəbbüslər çərçivəsində fəal irəlilədir". Burada diqqətçəkən məqamlardan biri Azərbaycanın ön planda olmasıdırsa, digər məqam da bu layihənin Azərbaycanın öz təşəbbüsləri ilə səsləşməsidir. Deməli, bir var İpək yolu keçdiyi məkanın çiçəklənməsinə səbəb ola, bir də var artıq kifayət qədər inkişaf yolu keçmiş bir ölkə özünü yeni təşəbbüs və təklifləri ilə oradan keçən İpək yolunun inkişafına öz bəhrəsini verə. Buna çox gözəl nümunə kimi Bakı-Tbilisi-Qars dəmir yolunu göstərmək olar. Deməli, Azərbaycan öz mövqeyinə görə karvan yolunda bir oazis statusu qazana bilib. Yenə qayıdaq məsələnin ideya müstəvisinə.

Azərbaycanın Yeni İpək yolundakı rolunun iqtisadi əhəmiyyəti ilə, onun layihəyə verdiyi təşəbbüslərlə yanaşı, bir vacib fakt da var - Azərbaycan islam ölkəsidir. Lakin bir şeyi dəqiqləşdirək: Azərbaycan islami dəyərlərə hörmətlə yanaşan və gündəlik həyatında islami prinsipləri hər şeyin önündə qoyan demokratik respublikadır. Din mənəvi hadisədir və siyasiləşəndə silaha, müəyyən maraqları həyata keçirən alətə, "xalq üçün opiuma" çevrilir. Azərbaycanda isə islamın məhz mənəvi dəyərləri qüvvədədir. Yəni bir Azərbaycan vətəndaşının şəxsi keyfiyyətlərinin, mənəviyyatının formalaşmasında islam prinsiplərinin əhəmiyyəti çox böyükdür. Bununla yanaşı, vacib bir məqamı da vurğulayaq - Azərbaycan ümumi xəttə - islam ümmətinə sadiq olmaqla yanaşı, öz milli xüsusiyyətlərini, dəyərlərini də qoruyub saxlayan bir ölkədir. Yəni burada həm milli təfəkkür, həm qərbləşmə, həm də islamlaşma var. Əslində, bu, bir modeldir - fərqli dəyərləri özündə cəmləyən, vəhdət halına salan bir model. Yeni İpək yolunun üzərində belə bir modelin olması bütün layihəyə müsbət təsir göstərir. Belə ki, islam dinini olduğu kimi, yəni mənəvi prinsiplərini ön planda tutduğuna görə Azərbaycan tolerantlıq, xoşgörülük nümunəsi kimi tanına bilir.

### Yeni İpək yolu Azərbaycana nə verir?

Azərbaycanın Yeni İpək yolunda əlverişli tərəfdaş olmasından, bu layihəyə verdiyi əhəmiyyətli bəhrələrdən danışanda, təbii ki, alternativ sual da yaranır: bəs Azərbaycan bundan nə qazanır?!

Azərbaycan tarixi İpək yolunun da üzvi hissəsi olmuş və bunun müsbət təsirini kifayət qədər yaşamışdır.

İpək yolu mürəkkəb və çoxşaxəli bir sistemdir. Onun bir çarxı, bir əhəmiyyətli hissəsi olmaq və bu sistemin mövcudluğuna görə cavabdehlik daşımaq böyük məsuliyyətdir. Mürəkkəb orqanizmlərdə hər detalın üzərinə onun missiyasına uyğun yük düşür. Burada ölçülərin əhəmiyyəti yoxdur, yəni ümumi sistemin fəaliyyətində ən kiçik detal da taleyüklü rol oynaya bilir. Məsələn, Azərbaycan kimi kiçik bir dövlət Rusiya ilə tərəzinin gözündə eyni çəkiyə malikdir. Düzdür, kiçik dövlətlər böyüklər tərəfindən sıxışdırıla, hətta layihədən kənarlaşdırıla bilir. Yaxud bu da danılmaz faktdır ki, öz maddi resursları, uyğun coğrafi mövqeyi ilə başqa dövlətlər üçün ya ucuz işçi qüvvəsinə, ya da xammala çevrilmək təhlükəsi də var. Belə olan halda dövlətlərin maddi deyil, məhz mənəvi potensialı ön plana keçir - üzərinə düşən yükün mahiyyətini və öz gücünü nə dərəcədə dərk edə, eyni zamanda öz yerini ümumi layihədə necə dəyərləndirə biləcək. Bunları düzgün və zamanında dərk etməklə öz varlığının, iştirakının zəruriliyini çatdırmaq, böyük dövlətlərlə eyni çəkiyə malik olduğunu sübut etmək mümkündür. Bu, qlobal düşünmə bacarığı, həm özünü bütöv sistemdə, həm də bütöv sistemi öz maraq dairəndə görə bilmək qabiliyyətidir. Belə bir prizmadan baxanda Yeni İpək yolunun Azərbaycana təsirini daha aydın görmək mümkündür: bütün dünyanı ehtiva edə biləcək böyük və mürəkkəb bir sistemin uzunömürlü və uğurlu olmasının məsuliyyəti həm də Azərbaycanın üzərində olduğuna görə ondan güclü olmaq tələb olunur. İndi isə reallığa baxaq: Ermənistan tərəfindən işğala məruz qalan, 20 faiz torpağını itirən, 1 milyondan artıq köçkün və qaçqın problemi olan Azərbaycan bütün bunlara baxmayaraq ən böyük layihələrə qoşulmaqdan, yeni layihələr təklifi irəli sürməkdən nəinki çəkinmir, üstəlik öz uğuruna inanır və qazanır. Çünki Yeni İpək yolunun bir hissəsi olmaq Azərbaycana bütün potensialını səfərbər etməyə imkan verir. Şübhəsiz ki, burada mənəvi sabitliyin də böyük payı var və bu xüsusiyyəti onu etibarlı, uzunmüddətli tərəfdaş kimi tanıdır. Axı, məhz mənəvi sabitlik imkan verir ki, bütün güc və potensialı üzə çıxsın, reallaşsın. Deməli, belə bir böyük layihədə iştirak etmək üçün maddi resurslarla bərabər, həm də dövlətin tədbirli və qətiyyətli idarəsi böyük əhəmiyyət kəsb edir.

Bu kontekstdə vurğulanmalı olan ikinci cəhət birincinin məntiqi davamıdır. Belə ki, yuxarıda da qeyd etdiyimiz kimi, Yeni İpək yolu keçdiyi trayektoriya boyunca yaşayan xalqların həm maddi resursları, həm də mədəniyyəti ilə zənginləşir. Bu mənada həmin xalqlar ümumi cərəyana qoşulsalar da, öz identikliklərini qorumaq məcburiyyətindədirlər. Əks halda orijinallığını itirər və bununla sadəcə xammala çevrilər. Azərbaycan tarixən elə bir coğrafi mövqeyə malik olub ki, həm öz kimliyini qorumalı, həm də ümumi prosesdən kənarda qalmamaq təcrübəsinə yiyələnməli olub. Bu mənzərə bu gün də dəyişməyib. Yəni burada həm tarixən, həm də bu gün iki paralel proses gedir: daxildən güclənmə və xarici qüvvələrlə ayaqlaşma. Azərbaycanın bugünkü prioritet istiqamətlərinə, diqqət yetirdiyi sahələrə baxsaq, bunun vizual mənzərəsini görərik. Bir tərəfdən ən cəsarətli layihələrlə çıxış edir, sərfəli təkliflərə qoşulur, digər tərəfdən öz milli-mənəvi dəyərlərinin qorunması üçün ciddi addımlar atır, milli kimliyini daha da sabitləşdirir. Bura milli təfəkkürün musiqi şəklində ifadəsi olan muğamdan tutmuş milli köklərimizin tarixi olan Dədə Qorqud eposuna, bir kəlağayının təbliğatına qədər milli təfəkkürü korşalmağa qoymayan hər təşəbbüs daxildir. Biz kəlağayını təsadüfən xatırlatmadıq. Axı ən zərif ipəkdən toxunan bu baş örtüyünün timsalında Azərbaycan həm İpək yolunun rəmzi olan ipəyin vətəni, həm də öz milli ənənəsini yaşadan bir məkan kimi tanınır.

### Qloballaşma və Yeni İpək yolu

Həm qloballaşma, həm də İpək yolunun qədimdən başlayan bir tarixi var. XX əsrdə hər ikisi yenidən canlandı və yeni bir rəng qazandı. Azərbaycanın hər iki prosesin içində olmasını nəzərə alaraq onları dərindən təhlil etmədən aralarında kiçik bir müqayisə aparacağıq. Yəni müqayisənin mərkəz nöqtəsində Azərbaycan və onun maraqları duracaq.

Əvvəla, hər ikisi bir ölkədən çıxıb bütün dünyanı ehtiva etmək iddiasında olan layihədir: qloballaşma Qərbə, İpək yolu isə Şərqə məxsus bir ideyadır. Maraqlıdır ki, yalnız bu faktı vurğulamaqla artıq hər ikisi haqqında bütün təsviri yaratmış olduq. Qərb və Şərq təfəkkür tərzlərini müqayisə edən mütəfəkkirlər, tədqiqatçılar adətən vurğuladıqları cəhətlər sırasında onu da əlavə edirlər ki, Qərbdə Şərqə nisbətdə sistemləşmə daha çox inkişaf edib və bu, özünü istər dövlət quruculuğunda, istər cəmiyyətdə, istərsə də adi futbol oyununda qabarıq göstərir.

Qloballaşma bir dalğadır - hər şeyi bəlli bir marağın standartına salan dalğa. Bu dalğada liderlik təbii ki, Qərbə aiddir. Yalnız ona görə yox ki, ideyanın sahibi o idi. Səbəb maddi resurslarda da deyil, çünki Şərq daha zəngindir. Deyilənlərə istinad etsək, digərləri sırasına belə bir səbəb də əlavə etmək olar: Qərbin özgüvəni Şərqə nisbətdə daha çox və möhkəm idi. Əlbəttə, bu özgüvəni yaradan faktlar ayrıca bir araşdırmanın mövzusudur. Biz burada yalnız nəticəni vurğulayırıq: bütün maddi sərvətinə, keçmiş zəngin tarixinə, neçə sivilizasiyanın, neçə elmi kəşfin beşiyi olmağına baxmayaraq, Şərqin özünə inamı Qərbdən qat-qat aşağıdır. Bu özgüvənin nəticəsində dövlətlər fərqli səviyyələrə bölündü və bunu çox gözəl dərk edən Hantinqton yazırdı ki, "soyuq müharibə zamanı dünya birinci, ikinci və üçüncü dünyalara bölündü". Düzdür, o əlavə edir ki, bu bölgü artıq aktual deyil, lakin qloballaşmanın hərəkət trayektoriyasına və məqsədlərinə baxanda belə anlamaq olur ki, dalğa məhz bu bölgünü nəzərdə tutaraq yayılmağa başlayıb - birinci, hazırda lider, yaxud superdövlətlər digər ölkələrə öz maraqlarını diktə edirlər, ikinci dünyaya müəyyən danışıqlar vasitəsilə, üçüncü dünyadan isə heç soruşmadan.

İpək yolu Şərq hadisəsi, Şərq təfəkkürünün nəticəsidir. Əsrlər əvvəl bu yolu öz maddi resurslarına və iqtisadi gücünə güvənən Çin salıb. XXI əsrdə də öz qüdrətini qaytarmağa başladıqca eyni layihəni yenidən canlandırmağı təklif edib. İlk dəfə Yeni İpək yolunu detallarına qədər şərh edən çinşünas Tavrovski belə hesab edir ki, məhz Qərbə etibar edən dünyanın 2008-2009-cu illərdə böyük iqtisadi böhran yaşaması Yeni İpək yolunun bərpasına təkan oldu. Əslində bu dərin böhran mənəviyyatda və düşüncələrdəki böhranın təzahürü idi. Hələ illər əvvəl məhz bu məsələdə mütəfəkkirlər Şərqin xüsusi gücünü vurğulayırdılar.

Azərbaycan zidd dəyərlərin qovşağında yerləşməsinə baxmayaraq, onların yanında öz milli dəyərlərini də qoruya bilir; qonşu Ermənistan tərəfindən işğala məruz qalsa da, digər dinlərə və mədəniyyətlərə qarşı yüksək tolerant və xoş mövqeyi ilə tanınır. Və bütün bunlarda islam dininin prinsiplərinin böyük rolu vardır. Yeni İpək yolu dünya miqyasına hesablanmış bir layihədir və onun uğuru, uzunömürlüyü bilavasitə üzvlərindən asılıdır. Azərbaycan belə bir uğurlu tərəfdaş nümunəsidir.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

# ADDA-da tədrisin keyfiyyətinin artırılması üçün çox iş görülür

***Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) Elmi Şuranın növbəti iclası keçirilib. Bu dəfəki iclasda Şura üzvlərindən başqa Akademiyanın strukturuna daxil olan şöbələrin rəhbərləri də iştirak ediblər.***



İclasa sədrlik edən ADDA-nın tədris və tərbiyə işləri üzrə prorektoru, professor Zahid Şərifov gündəlikdə duran məsələləri iclas iştirakçıların diqqətinə çatıdırıb. Sonra o, Akademiyanın 2019-cu ildəki fəaliyyətinə həsr olunmuş hesabatı təqdim edib. Ötən ildə görülən işlər haqqında məlumat verən Zahid Şərifov Akademiyanın qazandığı uğurlar və qarşısında duran problemlər haqqında da danışıb. Tədrisin keyfiyyətinin artırılması istiqamətində görülən və görülməsi nəzərdə tutulan məsələlərə toxunaraq bildirib ki, bu məsələ Akademiyanın ən başlıca vəzifəsi olaraq qalır. Maddi-texniki bazanın möhkəmləndirilməsi, tədris prossesinə peşəkar mütəxəssislərin cəlbi və təcrübənin təşkilinin daha keyfiyyətli qurulması ADDA rəhbərliyinin əsas diqqət mərkəzindədir.





Zahid Şərifov bu işlərin uğurla aparılması istiqamətində "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) diqqət və qayğısının həmişə hiss olunduğunu da qeyd edib. Hər təcrübə müddətində tələbələr üçün ASCO-nun bütün donanmalarına məxsus gəmilərdə yaradılan şəraiti bunun bariz nümunəsi kimi iclas iştirakçılarının diqqətinə çatdırıb.

Sonra Elmi Şura gündəlikdə duran digər məsələlərin müzakirəsi ilə davam edib. Mövzularla bağlı çıxışlardan sonra müvafiq qərar layihəsi qəbul olunub.

# Vergi hesabatı və arayışı müəyyən müddətdə təqdim etməyən vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq olunur

***Vergi ödəyicisi vergi uçotuna alınan zaman seçdiyi vergitutma metodundan asılı olaraq vergi orqanına hesabatlar təqdim etməlidir. Həmçinin vergi hesabatını və ya müvafiq arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin qərarına əsasən hər hesabat üçün 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur.***



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib ki, fəaliyyəti müvəqqəti dayandırmaq üçün vergi orqanına "Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması haqqında arayış" təqdim edilməli, arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir. Qeyd olunan müddət bitdikdə, fəaliyyətin dayandırılması barədə yenidən müraciət edilmədikdə fəaliyyətinin dayandırılması haqda müraciətdə göstərilən son tarixdən sonrakı gündən etibarən vergi ödəyicisinin fəaliyyəti aktivləşir. Gücləndirilmiş elektron imza (o cümlədən "ASAN İmza") və ya istifadəçi kodu, parol və şifrə olduqda Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalı üzərindən fiziki şəxsin fəaliyyətinin onlayn rejimdə dayandırılması mümkündür.

# Qətər qədim İpək Yolu layihəsinə maraq göstərir

***Qətər qədim İpək Yolu layihəsinə, eləcə də Avropa ölkələrinə şaxələnmiş nəqliyyat dəhlizinə çıxış əldə etməkdə maraqlıdır.***



Bu fikirlər Qətərdə səfərdə olan Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Natia Turnavanın Qətərin Nəqliyyat və Rabitə naziri Cassim Saif Əhməd Əl Sulaiti ilə görüşündə səsləndirilib.

Gürcüstan dəhlizə qoşulmaqla bağlı qarşı tərəfə müxtəlif konkret təkliflər təqdim edib.

N.Turnava bildirib ki, Qətər Gürcüstandan keçən dəhlizlərin və liman infrastrukturunun istifadəsində maraqlıdır.

***Xətayi Əzizov***

# ABŞ Konqresinin üzvü Tim Rayan Xocalı qətliamı ilə bağlı bəyanat verib

***ABŞ Konqresinin nüfuzlu üzvlərindən biri, Ohayo ştatını təmsil edən demokrat konqresmen Tim Rayan Xocalı qətliamı ilə bağlı bəyanat verib.***



Bəyanatda Xocalı qətliamı və bu dəhşətli faciənin qurbanları yad edilir. 28 il əvvəl 1992-ci ilin fevral ayında Xocalının günahsız əhalisinə qarşı vəhşicəsinə törədilmiş qırğının insanları sarsıtmaqda davam etdiyi bildirilir.

Cənubi Qafqazda törədilmiş ən böyük qəddarlıqlardan biri kimi xarakterizə olunan Xocalı qətliamı üzrə ədalətin təmin olunmadığı və 155 dinc Xocalı sakininin aqibətinin hələ də bəlli olmadığı diqqətə çatdırılır.

Beynəlxalq ictimaiyyətdən insan hüquqlarına və demokratik öhdəliklərə hörmət etməyi tələb edən Konqres üzvü Xocalıda baş verənlərin unudulmamasının və qətliamı törədənlərin məsuliyyətə cəlb olunmasının vacibliyini vurğulayır.

Konqres üzvünün bəyanatı ilə https://www.congress.gov/116/crec/2020/02/27/modified/CREC-2020-02-27-pt1-PgE224.htm internet səhifəsində tanış olmaq mümkündür.

# ABŞ konqresmeninin Xocalı qətliamı ilə bağlı bəyanatında mülki əhaliyə qarşı hücumların qəbuledilməzliyi vurğulanır

***ABŞ Konqresində Xocalı qətliamı ilə bağlı bəyanatlar verilməkdə davam edir.***



Növbəti bəyanat Arizona ştatını təmsil edən Konqres üzvü Pol Qosar tərəfindən yayılıb.

Bəyanatda 28 il bundan əvvəl baş vermiş faciə ABŞ Konqresinin diqqətinə çatdırılır. Bildirilir ki, Azərbaycan bu gün regionun geniş imkanlara, zəngin mədəniyyətə, əmin-amanlığa malik ölkəsidir. Bəyanatda, eyni zamanda, müstəqilliyinin ilk illərində Azərbaycanın üzləşdiyi çətinliklər, Sovet İttifaqının dağılması ilə Ermənistanla yaranan münaqişə barədə məlumat verilir, Xocalı faciəsindən bəhs olunur.

Bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Xocalıya hücumu nəticəsində 613 nəfər qətlə yetirilib. Qətliam qurbanlarının anılmasının vacibliyi bildirilir, mülki əhaliyə qarşı hücumların qəbuledilməz olduğu diqqətə çatdırılır.

Bəyanatda ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədri olmasından məmnunluğunu ifadə edən Konqres üzvü ölkəsinin münaqişənin sülh yolu ilə həlli istiqamətində səylərini davam etdirəcəyini bildirir, Xocalı əhalisinin xatirəsinin yad edilməsinin önəmini vurğulayır. Azərbaycan əhalisinin belə qətliamla bir daha üzləşməməsi üçün münaqişənin həllinin vacibliyi qeyd edilir.

Bəyanatın sonunda Xocalı qurbanlarının xatirəsi bir daha yad edilir.

Bəyanatın mətni ilə https://www.congress.gov/116/crec/2020/02/26/modified/CREC-2020-02-26-pt1-PgE218-4.htm internet səhifəsində tanış olmaq mümkündür.

# Yalnız Azərbaycan onu əhatə edən hegemon ambisiyalı böyük dövlətlərlə bərabər məsafə saxlamağı bacardı

***Sovetlərin iflasından sonra müstəqilliyini bərpa edən 3 Qafqaz respublikasından yalnız Azərbaycan onu əhatə edən hegemon ambisiyalı böyük dövlətlərlə bərabər məsafə saxlamağı bacardı. Ermənistan əli-qolu bağlı Rusiyaya tabe oldu, qərbpərəst macəraların qoynuna atılan Gürcüstanın yaraları hələ də sağalmayıb.***

Bu fikirlər Fransadakı səfirimizin fransız dilində dərc olunmuş "Azərbaycan böyük dövlətlər arasında" kitabına dair "La Revue" jurnalının geosiyasət rubrikasında dərc olunan "Qafqazda təsir oyunları" adlı məqalədə yazılıb.


La revue
1 mars 2020 - N°88
PAYS :France
PAGE(S) :64-65
SURFACE :198 %
PERIODICITE :Mensuel
JOURNALISTE :Jean-Louis Gouraud

GÉOPOLITIQUE
Jeux d'influences au Caucase
Encerclées par trois puissances régionales ambitieuses, les républiques ex-soviétiques du Caucase ont du mal à mener une politique indépendante. La plus convoitée — l'Azerbaïdjan — est aussi celle qui s'en sort le mieux.
Par Jean-Louis Gouraud

Məqalədə səfirin kitabından sitatlar gətirilərək, bu əsərdə ölkəmizin tarixən keçdiyi keşməkeşli yollar haqqında məlumat verildiyi bildirilib. Zəngin neft və qaz ehtiyatlarının Azərbaycana qarşı daim qısqanclıq hissləri oyatdığı və bunun da ölkəmizə həmişə baha başa gəldiyi vurğulanıb. Məqalədə 1991-ci ildə yenidən müstəqilliyini bərpa edən Azərbaycanın üzləşdiyi müxtəlif çətinliklərdən də söz açılıb.

Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanın dünyəvi və demokratik ölkə olduğu diqqətə çatdırılıb.

***Şəhla Ağalarova***

# Azərbaycanın işğal edilmiş ərazilərində hərbi cinayətlərə dair məruzə BMT-nin rəsmi sənədi kimi yayılıb

***Məşhur beynəlxalq hüquqşünas Malkolm Şou və Naomi Hart tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hərbi cinayətlər və Ermənistanın məsuliyyətinə dair" məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məruzədə Azərbaycanın hazırda işğal altında olan ərazilərində Ermənistanın törətdiyi müharibə cinayətləri və bununla bağlı Ermənistanın üzərinə düşən öhdəliklər araşdırılır, bu xüsusda müvafiq hüquq normaların nəzəri təhlili ilə yanaşı, həmin normaların Ermənistan tərəfindən pozulmasını sübut edən faktoloji məlumatlar əks olunur.

Məruzədə beynəlxalq təşkilatların sənədləri, Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin qərarları, qeyri-hökumət təşkilatlarının araşdırmaları, kütləvi informasiya vasitələrinin açıqlamaları, fərdi müəlliflərin yazıları kimi müstəqil mənbələrdən, eləcə də Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının sənəd və materiallarından istifadə olunub.

İki hissədən ibarət olan məruzənin birinci hissəsi münaqişənin faktoloji və tarixi kökləri, beynəlxalq humanitar hüququn ümumi izahı və bu xüsusda, Ermənistanın üzərinə düşən öhdəliklərin təhlilinə həsr edilib. Məruzənin ikinci hissəsi isə ardıcıl qaydada təhlil edilmiş müharibə cinayətlərindən bəhs edir, burada ilk növbədə, mülki şəxslərin öldürülməsi və yaralanması ilə bağlı müharibə cinayətlərinə dair, daha sonra isə etnik təmizləmə, işğal altında olan ərazilərdən məcburi köçürülmə və bu ərazilərin xüsusiyyətinin məqsədyönlü şəkildə dəyişdirilməsi, eləcə də mədəni irsin dağıdılması və ətraf mühitə zərər vurulması kimi məsələlərin təhlili yer alıb.

Məruzədə BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilərək, BMT Təhlükəsizlik Şurasının birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını dəstəklədiyi, Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının tərkib hissəsi olduğu və erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şəraitin yaradılması barədə tələb irəli sürdüyü vurğulanır.

Məruzədə Ermənistanın bu tələblərə məhəl qoymayaraq, Azərbaycanın ərazilərini nəinki işğal altında saxlamağa davam etdiyi, hətta bütün beynəlxalq hüquq normalarına zidd olaraq, orada müxtəlif növ qeyri-qanuni fəaliyyət apardığı qeyd edilir. Belə ki, sənəddə Ermənistan Respublikasının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində beynəlxalq hüquqa zidd qeyri-qanuni fəaliyyəti araşdırılır. Bu xüsusda, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 2016-cı ildə hazırlanmış "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət" adlı hesabatın, eləcə də Xarici İşlər Nazirliyi və "Azərkosmos"un 2019-cu ildə birgə dərc etdiyi "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peykdən çəkilmiş şəkillərlə sübutlar" adlı hesabatın BMT çərçivəsində yayıldığı qeyd edilir.

Məruzədə, həmçinin Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətləri, Ermənistanın əməllərinin qeyri-qanuniliyinin hüquqi əsaslandırılması və Ermənistanın beynəlxalq məsuliyyətinə dair hüquqi rəy təmin edilir. Məruzə Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsinin BMT baş katibinə müşayiət məktubu ilə birgə bu ilin 7 fevral tarixində BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi dərc edilib.

# Övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu yeni Qaydada əsas prinsip kimi müəyyən olunur

***Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası" ölkəmizdə övladlığagötürmə sahəsində idarəetmənin müasir səviyyədə və innovativ əsaslarda təşkilinə, uşaqların yeni ailələrdə yaşaması və inkişafına nəzarətin gücləndirilməsinə xidmət edir.***



Qaydada valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və onları övladlığa götürməyi arzu edən şəxslərin vahid uçotunun elektron qaydada aparılması, övladlığagötürmənin əsaslandırılması və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy verilməsi, habelə övladlığagötürmənin ləğvinin tələb edilməsi və övladlığagötürmə sahəsində monitorinq aparılması qaydaları müəyyən edilir.

Sənəddə bu sahədə işlərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirildiyi bildirilir. Qaydaya əsasən, övladlığa götürülən uşaqların, habelə valideyn-namizədlərin vahid uçotunu nazirlik özünün və Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Miqrasiya Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və kredit bürolarının informasiya sistemləri və ehtiyatlarından istifadə etməklə elektron qaydada aparacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, övladlığagötürmə prosesinin elektron sistem üzərindən aparılması ilə bağlı qaydaların təqdim edildiyi sənəddə övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu və onun övladlığa götürüldüyü ailədə inkişafı üçün şəraitin olması vacib prinsiplərdən biri kimi diqqəti cəlb edir. Yəni Qayda bütün tərəflərdən - ailənin maddi-məişət şəraiti, ailənin tərkibi, ailə üzvlərinin sağlamlığı, ailədəki münasibətlər, valideyn-namizədin valideynlik bacarıqları və s. baxımından övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğunun dəqiq müəyyən olunmasını və onun nəticəsinə uyğun qərar verilməsini nəzərdə tutur.

Qaydaya əsasən, Ailə Məcəlləsinin 120.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda, habelə övladlığa götürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən və siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edilən xəstəliklərdən birinə tutulmuş valideyn-namizəd, nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (yaxın qohumları olan uşağın övladlığa götürülməsi istisna olmaqla) tərəfindən uşaqların övladlığa götürülməsinə, həmçinin aralarında nikah olmayan şəxslərin birlikdə eyni uşağı övladlığa götürməsinə yol verilmir.

Hər bir valideyn-namizəd, onunla birgə yaşayanlar və s. barədə məlumatlar əldə edildikdən sonra valideyn-namizədlə müsahibələr keçirilməsi, maddi-məişət şəraitinin müayinəsinin aparılması, onun üçün təlimlərin təşkili nəzərdə tutulur. Valideyn-namizədlə müsahibə keçirilməsi zamanı övladlığagötürmənin məqsədlərinin uşağın mənafeyinə uyğun olmadığı müəyyən edildikdə də valideyn-namizədin uçotdan çıxarılması nəzərdə tutulur. Təlimin sonunda valideyn-namizədin övladlığagötürmə ilə bağlı özünəinam, özünüdərk, övladlığa götürülən uşağın ehtiyacları barədə əsas biliklərə malikolma və valideynlik bacarıqlarının inkişaf səviyyəsi və s. qiymətləndirilir. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, e-sistem övladlığa götürülən uşağa uyğun valideyn və valideyn-namizədə uyğun uşaq seçir.

Valideyn-namizədlə uşaqların uyğunlaşdırılması, uşağın yerləşdirildiyi müəssisədə iki ay ərzində ayda 40 saatdan az olmamaqla görüşlərinin təşkili, övladlığa götürüləcək uşaqların valideyn-namizədin evində sınaq məqsədilə müvəqqəti yerləşdirilməsi ilə bağlı da sənəddə müvafiq qaydalar müəyyən olunur. Nəticə əsasında övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu barədə məhkəməyə rəy təqdim edilir.

Uşaq 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə onun ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji inkişaf səviyyəsinin öyrənilməsi məqsədilə nazirlik monitorinqlər aparacaq. Bu zaman ailənin yaşayış şəraiti, maddi vəziyyəti, övladlığa götürülmüş uşağın və onu övladlığa götürmüş şəxsin (şəxslərin) sağlamlıq vəziyyəti, həmçinin ailədə uşağa qulluq və qayğı vəziyyəti nəzərə alınacaq.

# Hər birinizə layiq olduğunuz ən böyük səadət arzulayıram

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev martın 6-da Gəmiçilikdə çalışan xanımları Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:***




*Hörmətli xanımlar!*

Əziz analar və bacılar!

Qarşıdan ülvi varlıq olan qadına bəşəriyyətin məhəbbət və ehtiramını parlaq ifadə edən 8 Mart – Beynəlxalq Qadınlar Günü gəlir.

Sizi – zərif cinsin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də çalışan bütün nümayəndələrini bu bayram münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, layiq olduğunuz ən böyük səadət və işlərinizdə uğurlar arzulayıram.

Qadınlar bəşəriyyətin taleyüklü problemlərinin həllinə həmişə öz töhfələrini vermiş və bu gün də müasir dünyanın inkişaf istiqamətlərinin müəyyən edilməsində böyük xidmətlər göstərirlər.

Gözəllik, sədaqət və ismət rəmzinə çevrilən Azərbaycan qadınları da tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynamışlar. Milli-əxlaqi dəyərlərimiz, mədəni irsimiz, adət-ənənələrimiz, ana dilimiz analarımızın sayəsində mürəkkəb dövrlərin təqib və sınaqlarından məharətlə çıxaraq bu günümüzədək qorunub saxlanılıb.

Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı ədib, böyük alim… kimi tanınan qadınlarımızla həmişə fəxr etmişik. Hər birimiz üçün çox qiymətli Vətən, torpaq, dil anlayışlarının ana adı ilə qoşa çəkilməsi də qadınlara verilən yüksək qiymətin təzahürüdür.

Zamanın bütün sınaqlarından alnıaçıq çıxmış Azərbaycan qadınları bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, iqtisadi tərəqqisi üçün fədakarcasına çalışırlar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu indiki dövrdə Azərbaycan qadını gəncləri vətənə sədaqət ruhunda tərbiyə edərək onları xalqa, cəmiyyətə layiqli övlad yetişdirmək kimi müqəddəs vəzifənin öhdəsindən şərəflə gəlir.

Hazırda həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınlar təmsil olunmasınlar. Vaxtilə zərif çiyinlərində yalnız bir ailənin yükünü çəkməklə kifayətlənən Azərbaycan qadını bu gün dünyanın ən mədəni, intellektual qadınlarının önündə gedir. Bu da danılmaz həqiqətdir ki, öz istedad və bacarıqlarını üzə çıxarmaq üçün heç vaxt indiki qədər geniş imkanlara malik olmayıblar. Qadınlarımıza həmişə böyük hörmət bəsləmiş, onların cəmiyyətdə layiqli yer tutmaları üçün istər sovet dövründə, istər müstəqillik illərində əlverişli şərait yaratmış Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev cənabları eyni diqqət və qayğı ilə Azərbaycan xanımlarının ictimai mövqeyinin daha da möhkəmlənməsi üçün ardıcıl tədbirlər həyata keçirir. Müxtəlif sahələrdə fərqlənən qadınlarımızın dövlət mükafatlarına və fəxri adlara layiq görülməsi buna əyani sübutdur. Xanımlarımızın cəmiyyətdəki yeri və rolunun əsas göstəricisi, mübaliğəsiz, onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, fəal əmək fəaliyyəti ilə məşğul olmalarıdır.

Bugün bütün dünya Azərbaycanın birinci xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, milli dəyərlərimizin və mədəniyyətimizin böyük təbliğatçısı, ümummilli problemlərimizin beynəlxalq müstəviyə çıxarılmasında əvəzsiz xidmətlər göstərən Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının nəyə qadir olduğunun şahididir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin idarə, müəssisə və təşkilatlarında da dəniz nəqliyyatının inkişafına sanballı töhfələr verən yüzlərlə qadın çalışır. Gəmilərdə üzən, fırtınalar qoynunda mütəmadi səfərlərə çıxan dənizçi xanımların fədakarlığı isə hər cür tərifdən ucada durur.

Gözlərinizdən sevinc, üzünüzdən təbəssüm heç vaxt əskik olmasın, əziz xanımlar!

Bahar təravətli bayramınız mübarək!

***Rauf Vəliyev,***
***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri***

# "İdarəetmədə gender disbalansı"

***BMT-nin Baş katibi Antonio Quterreş "İdarəetmədə gender disbalansı" adlı məqalə yazıb. Məqalədə deyilir:***



Gender bərabərsizliyi dövrümüzün ən acı ədalətsizliyi və insan hüquqları sahəsində qarşılaşdığımız ən böyük problemdir. Əslində, gender bərabərliyi günümüzün bəzi ən çətin problemlərini həll etməyə qadirdir.

Qadınlar hər yerdə kişilərdən daha əlverişsiz durumdadır, sadəcə, qadın olduqlarına görə. Milli azlıqlardan olan, habelə yaşlı, əlil, miqrant və qaçqın qadınlar üçünsə reallıq daha acınacaqlıdır.

Son illər ayrı-seçkilik qanunlarının ləğvindən tutmuş məktəbə gedən qızların sayının artmasına qədər qadın hüquqları sahəsində çox böyük irəliləyişlər görsək də, hazırda biz güclü müqavimətlə üzləşirik. Bəzi ölkələrdə təcavüz və məişət zorakılığına qarşı hüquqi müdafiə zəiflədiyi halda, digərlərində məcburi reproduksiya kimi qadınlara qarşı cəzalandırma siyasəti yürüdülür. Qadınların cinsi və reproduktiv hüquqları hər tərəfdən təhlükə altındadır.

Bütün bunlar ona görə baş verir ki, gender bərabərliyi əsasən güc məsələsidir. Ayrı-seçkilik və dərin kök atmış patriarxal münasibətlər iqtisadiyyat, siyasi sistem və korporasiyalarda kişi və qadınlar arasında böyük gender boşluğu yaradıb. Bunun sübutunu hər yerdə görə bilərik.

Qadınlara hələ də hökumətlər, korporasiyalar və nüfuzlu mükafatlandırma mərasimlərində rəhbərlikdə yer verilmir. Qadın liderlər və ictimai xadimlər virtual və real həyatda təcavüz, təhdid və təqiblərlə üzləşir. Məvaciblərdə gender əsaslı ayrı-seçkilik bu gender bərabərliyindəki boşluğun bir əlamətidir.

Şəhər planlaşdırma və narkoloji ekspertiza kimi neytral sahələrdə belə qərarların verilməsi "kişi işi" kimi qəbul edilir, kişilərin bu sahələrdə fəaliyyəti standart, qadınların iştirakı isə istisna hal kimi qəbul olunur.

Qadınlar və qızlar əsrlərboyu onlara qarşı nifrətlə və nailiyyətlərinin silinməsi ilə mübarizə aparırlar. Onlar isterik və ya hormonlardan asılı biriləri kimi lağa qoyulur, xarici görünüşlərinə görə mühakimə edilir, bədənlərinin təbii funksiyaları ilə bağlı mif və tabularla üzləşir, kişilərin onlara daim ağıl vermək istəyi və hətta qurban olduqları zaman ittihamla qarşılaşırlar. Bunlar hamımıza təsir edir və qarşılaşdığımız bir çox problem və təhdidlərin həlli üçün maneədir.

Bərabərsizliyi götürək. Qadınlar kişilərin qazandığı hər bir dollar qarşısında 77 sent qazanırlar. Dünya İqtisadi Forumunun son tədqiqatında bildirilir ki, bu cür davam etsək bu fərqi aradan qaldırmaq üçün 257 il vaxt lazımdır. Eyni zamanda, qadınlar və qızlar hər gün 12 milyard saat ödənişsiz qayğı xidmətləri göstərirlər ki, bu da iqtisadi qərarların qəbul edilməsi zamanı nəzərə alınmır. Əgər biz hər kəsin faydalana biləcəyi ədalətli qloballaşmaya nail olmaq istəyiriksə, siyasətimizi qadınların həqiqi töhfəsini nəzərə alan statistikaya əsaslandırmalıyıq.

Başqa bir məqam rəqəmsal texnologiyadır. Dünya universitetləri, startaplar və Silikon Vadisində gender balansının olmaması böyük narahatlıq doğurur. Bu texnoloji mərkəzlər gələcəyin cəmiyyətlərini və iqtisadiyyatlarını formalaşdırır. Biz onlara kişilərin üstünlüyünü möhkəmləndirməyə imkan verə bilmərik.

Dünyamızı dağıdan müharibələri götürək. Qadına qarşı zorakılıq, vətəndaşlara zülm və münaqişələr arasında birbaşa əlaqə var. Bir cəmiyyətin öz əhalisinin yarısını təşkil edən qadınlara necə münasibət göstərməsi digərlərinə qarşı davranışının vacib göstəricisidir. Dinc cəmiyyətlərdə belə bir çox qadın öz evində ölümcül təhlükə ilə üzləşir.

Hətta iqlim böhranına dair gördüyümüz işlərdə də gender boşluğu var. Tullantıların azaldılması və təkrar emal təşəbbüsləri əksər hallarda qadınlardan gəlir. Kişilər isə sınaqdan keçirilməmiş texnoloji həllərə daha çox inanırlar. Qadın iqtisadçılar və deputatlar kişilərə nisbətən daha çox ətraf mühitin qorunmasına yönəlmiş siyasəti dəstəkləyirlər.

Nəhayət, siyasi təmsilçilik gender gücü boşluğunun ən bariz sübutudur. Dünya parlamentlərində orta hesabla hər üç kişi deputata bir qadın deputat düşür. Amma onların fəaliyyəti sayəsində səhiyyə və təhsil sahəsinə yenilik və sərmayə gətirilir. Təsadüfi deyil ki, iqtisadi uğuru rifah və dayanıqlılığa görə qiymətləndirən hökumətləri məhz qadınlar idarə edir.

Buna görə Birləşmiş Millətlər Təşkilatındakı ilk prioritetlərimdən biri qadınları rəhbər vəzifələrə cəlb etmək idi. Hazırda planımızı iki il qabaqlayaraq yüksək vəzifəli şəxslər səviyyəsində gender bərabərliyinə nail olmuşuq və yaxın illərdə bütün səviyyələrdə bərabərliyi təmin etmək məqsədimiz var.

Dünya ciddi problemlərlə üzləşib və gender bərabərsizliyi bunun əsas səbəblərindən biridir. İnsanlığın yaratdığı problemin bəşəri həlli var. Gender bərabərliyi hamı üçün fayda verəcək gücün yenidən təyin edilmə və dəyişdirilmə vasitəsidir.

XXI əsr sülh və ticarət danışıqları, iclas və sinif otaqları, "Böyük iyirmilik" və BMT-də qadınların bərabərliyi əsri olmalıdır.

Qadınları dəyişdirmək cəhdlərini dayandırmaq və onların potensialını həyata keçirmələrinə mane olan sistemləri dəyişmək vaxtıdır.

# Qız uşaqlarının dəyərinin təşviq edilməsi sahəsində əhəmiyyətli işlər görüləcək

***Ötən il ölkəmizdə 14 min 179 körpə dünyaya gəlib. Onlardan 53,2 faizi oğlan, 46,8 faizi qız uşaqlarıdır. 2018-ci ildə doğulanlardan 74 min 224-ü oğlan, 64 min 758-i qız, 2017-ci ildə doğulanlardan 76 min 584-ü oğlan, 67 min 47-si qız uşaqlarıdır. Son illər aparılan demoqrafik təhlillər göstərir ki, ölkədə yeni doğulan körpələr arasında oğlan uşaqlarının sayı çoxluq təşkil edir. Bioloji normaya görə, hər yeni doğulan 100 qız uşağına 105 oğlan uşağı düşməlidir. Ancaq ölkəmizdə bu göstərici fərqlidir. Belə ki, yeni doğulan 100 qız uşağına 114 oğlan uşağı düşür.***



Mütəxəssislər bu göstəricinin kifayət qədər yüksək olduğunu deyirlər. Son illər aparılan statistika göstərir ki, ölkəmizdə hər 1000 kişiyə düşən qadınların sayı ildən-ilə azalır. Artımın bu şəkildə getməsi əhalinin stabil artımını sual altında qoyur.

Maraqlıdır ki, doğulan uşaqlar arasında cins nisbətinin pozulması meyilləri aşağı gəlirli ailələr arasında daha yüksəkdir. Ölkədə dünyaya gələn uşaqların cins seçimi əsasən kənd yerlərində və nisbətən aztəminatlı ailələrdə müşahidə olunur. Digər tərəfdən ananın yaşı artdıqca doğulanlar arasında oğlan uşaqlarının payı daha da artır. Bu, ilk növbədə doğulacaq övladın cinsinin seçimi ilə bağlı valideynlər tərəfindən verilən qərarlarla, o cümlədən selektiv abortların artması ilə izah olunur.

"Cəmiyyətə gender bərabərliyinin təmin olunması məqsədilə uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planı dörd hissədən ibarətdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq və demoqrafiya şöbəsinin müdir müavini Rəna Abdullayevanın verdiyi məlumata görə, cins nisbətinin pozulmasının miqyasının müəyyən olunması üçün müvafiq araşdırmaların aparılması, statistik göstəricilərin toplanılması və bu sahədə statistikanın daha da təkmilləşdirilməsi ilə bağlı, xüsusilə reproduktiv sağlamlıqla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər nəzərdə tutulub.

Qarşıdakı beş il ərzində planın icrası sahəsində ölkədə cinsə görə qərəzli seçimin azaldılması və qız uşaqlarının dəyərinin təşviq edilməsi sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunacaq, qadınların cəmiyyətdə rolu artırılacaq, zorakılığın bütün formalarının qarşısı alınacaq. Erkən nikaha qarşı mübarizə aparılacaq, daha çox qız təhsilə yönəldiləcək. Bütün bunların həyata keçirilməsi üçün maarifləndirmə və məlumatlandırmaya da xüsusi diqqət yetiriləcək.

# İlk peşəkar xanımlar

***Tarix və təcrübə göstərir ki, asan və ya çətin olmasına baxmayaraq, qadın da kişilərin bacardığı işi görür - döyüşçülükdən kosmonavtikayadək. Tarix boyu dünyada mövcud olmuş peşələrdəki "ilk" qadınları təqdim edirik.***



İlk qadın astronavt - Valentina Nikolayeva-Tereşkova ilk qadın astronavt kimi adını tarixə yazıb. 1963-cü il iyunun 19-da "Vostok 6 " ilə 71 saat ərzində dünyanın ətrafında 48 dəfə dövr edib.

İlk qadın həkim - Elizabet Blakvell əslən İngiltərədəndir, daha sonra ABŞ-a köçüb. Uşaqlıq dostu xərçəngdən öləndən sonra həkim olmaq qərarı verib. Rəfiqəsinin ölmədən öncə Elizabetə dediyi "bir qadın həkim olsaydı, dərdimi ona daha rahat deyə bilərdim" sözləri onun yaddaşında ömürlük qalmışdı. O, Filadelfiya və Nyu Yorkdakı tibb məktəblərinə müraciət etdi, lakin qız olduğu üçün qəbul olunmadı. Elizabet yenə var gücü ilə mübarizə apardı və sonda məktəbə qəbul olundu. Bitirdikdən sonra məhz qadın olduğuna görə heç bir xəstəxanada işə götürmədilər. O da məcbur olub öz tibb mərkəzini açdı. İlk xəstələri də elə xanımlar oldu.

İlk qadın memar - Peşəsini tam və əsaslı olaraq yerinə yetirən ilk qadın memar Ethel Meri Çarlz sayılır. Böyük layihələrə imza atan Meri 1898-ci ildə imtahandan uğurla keçərək "İngiltərənin Memarlar Otağı"na üzv seçilib.

İlk qadın vəkil - "Qadın müdafiə olunandır, qadın zəifdir və qadın qayğıya ehtiyac duyandır"- Arabella bu sözlərdən bezdiyini deyirdi. O, müdafiə olunan yox, müdafiə edən olmaq istəyirdi. Sadə Amerika vətəndaşı Arabella Mansfayld arzularını və istəklərini reallaşdırdı. Bir vəkilin bürosunda şagirdlik etdi, təhsilini tamamladı. 1869-cu ilin iyun ayında ilk məhkəməsinə çıxdı və qazandı.

İlk qadın səfir - Aleksandra Qollandas adlı rusdur. Aristokrat ailənin övladı olan bu xanım 1915-ci ildə öz ailəsi və aid olduğu təbəqə ilə olan bağlarını qopardı və bolşeviklərə qatıldı. 1922-ci ilin payızında Sovet İttifaqının Norveçdəki səfiri təyin edildi. O tarixdə SSRİ hələ Norveç tərəfindən rəsmən tanınmamışdı. Ona görə ilk xanım səfir Norveçin SSRİ-ni rəsmi olaraq tanınmasından, yəni 1924-cü ilin 15 fevralından sonra vəzifəsinin icrasına başladı.

İlk qadın hakim - Ester Morris amerikalıdır. Hüquq təhsili alsa da, qadınların bu cür işlərdə işləməsi bir növ qəbul edilmirdi. 1870-ci ildə ABŞ-ın Vyominq əyalətindəki şəhərlərin birində məhkəmə sədri təyin olundu. Məhkəmə sədri olduğu dövrdə 70 iddiaya baxdı. Şəhərdə həmişə onun ədalətli olmasından danışırdılar.

İlk qadın bələdiyyə sədri - Susanna Medora Salter 1887-ci ildə 27 yaşında Kanzas əyalətinin Arqonuya şəhərinin bələdiyyə sədri seçilib. Seçicilərin üçdə ikisinin səsini qazanan Susannanın namizədliyi özünün xəbəri olmadan üzv olduğu bir dərnək tərəfindən irəli sürülmüşdü. O, namizəd olduğunu səs vermək üçün məntəqəyə getdiyi zaman öyrənib.

İlk qadın baş nazir - Bu, Şirimavo Bandaranaykedir. O, 1960-cı ildə öz hökumətini qurdu, Şri-Lanka hökumətinin ilk baş naziri oldu. Ondan sonra qadın baş nazirlərin sıralanması isə bu cürdür: Hindistanda 1966-cı ildə İndira Qandi, İsraildə 1969-cu ildə Elizabet Domiteyn, İngiltərədə 1979-cu ildə Marqaret Tetçer öz ölkələrinin baş naziri seçildilər.

İlk qadın pilot - Elis Roşe olub. 1909-cu ildə təkbaşına uçuş həyata keçirən Elis birillik təhsildən sonra ilk professional qadın pilot kimi adını tarixə yazdırdı.

İlk qadın polis - Alisa Stebbin 1910-cu ildə Los-Ancelesdə fəaliyyətə başlasa da, cəmiyyət onu qəbul etmirdi. Polislərə verilən gediş kartı onu çətin vəziyyətə salırdı. Tez-tez ictimai nəqliyyatda mübahisə etməli olurdu. Alisa nə vaxt sürücüyə kartını göstərsə, onu ərinin kartını istifadə etməkdə suçlayırdılar. Stebbin bunu komandirinə deyəndən kartına "kart qadın polisi üçün verilir" yazdılar.

***Xəyalə MURADLI***

# 29 qardaşın bir bacısı

***Azərbaycanda gəmiqayırma və gəmi təmirinə tələbat həmişə olub. Ölkəmizdə gəmi təmiri işləri 20-ci əsrin əvvəllərindən yerinə yetirilməyə başlanıb. Bundan başqa, hazırda Azərbaycanda yerli və xarici gəmiçilik şirkətlərinin sifarişi əsasında gəmi tikintisi ilə məşğul olan Bakı Gəmiqayırma Zavodu da fəaliyyət göstərir.***



Əlbəttə ki, gəmiqayırma və gəmi təmiri peşəsi üzrə savadlı mütəxəssislərin hazırlanması bu sahənin inkişafı üçün tələb olunan əsas məqamlardan biridir. Azərbaycan Dövlət Dəniz Akademiyası belə kadrların yetişdirilməsində mühüm rol oynayır. Fəxrlə deyə bilərik ki, bu gün ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodu və "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu ilə yanaşı, Bakı Gəmiqayırma Zavodunun əməkdaşlarının əksəriyyəti məhz ADDA-nın "Gəmiqayırma və gəmi təmiri" ixtisasının məzunlarıdır.

2017-ci ilin qəbul imtahanlarının nəticələrinə əsasən bu ixtisası seçən tələbələr qruplara bölündülər. 187 A qrupundakı 29 oğlan tələbənin demək olar ki, hamısı 30-cu tələbənin Mədinə Şirinova olduğunu biləndə təəccüblərini gizlədə bilmədilər.

**- Bəs, Mədinə özü 187 A qrupunun 30-cu, amma yeganə qız tələbəsi olduğunu biləndə nə düşündü?**

- Düzünü desəm, seçimimə bir anlıq peşman oldum. Çox istəyirdim, hətta dua edirdim ki, qrupumuza məndən başqa da bir xanım gəlsin. Necə deyərlər, duam qəbul olmadı. (gülür)

**- Gəl, əvvəldən başlayaq. ADDA-ya yolun necə düşdü? Bu seçimə nə vaxt qərar verdin?**

- Bakıda doğulmuşam. Bir müddət Rusiyada yaşamışam. Bağçaya orda getsəm də, valideynlərim Rusiyada təhsil almağımı istəmədilər. Ona görə Azərbaycana köçdük. Bakının Xətai rayonundakı 63 saylı məktəbi bitirmişəm. Elə məktəb vaxtlarından xüsusi geyimi olan peşələr məndə maraq yaratmışdı. Əvvəlcə, polis olmaq istəyirdim. Atam qəti etiraz etdi. Digər ixtisasları nəzərdən keçirməyə başladım. İnternetdə Azərbaycan Dövlət Dəniz Akademiyası haqqında məlumata rast gəldim. Oxudum, məlumatı olanlardan da soruşdum. Dedilər, çox yaxşı Akademiyadır. Tədris, nizam-intizam öz yerində, amma tələbələrin əsas hissəsi oğlanlardır.

**- Bunu biləndə fikrindən daşınmaq istəmədin?**

- O qədər həvəsli idim ki, heç nə barədə fikirləşmirdim. Həm də ümid edirdim ki, bu ixtisası məndən başqa qız da seçər. Çünki bildiyim qədər "Gəmiqayırma və gəmi təmiri" ixtisasında məndən əvvəl də xanımlar olub.

**- Ümumiyyətlə, 29 oğlanla birlikdə oxumaq çətindir?**

- Əksinə, elə bir çətinlik yoxdur. Uşaqlarla çox mehribanıq. Onları doğmam bilirəm. Mənə xüsusi hörmət edirlər. Hətta öz aralarında zarafat belə edəndə çərçivədən çıxmırlar. Bizə dərs deyən müəllimlər də deyirlər ki, mənim qrupda olmağım çox yaxşıdır. Oğlanlar istər-istəməz mənə görə çərçivədədirlər. Çox səs-küy salmırlar. (gülür)






**- Mədinə, ailən sənin 29 oğlanla bir qrupda oxumağına necə qarşıladı?**

- Qardaşım əvvəlcə narazılıq etdi. Amma sonra qrup yoldaşlarımla tanış oldu və gördü ki, hamısı xətrimi istəyir.

**- Bəs, rəfiqələrin bu qədər oğlanla bir yerdə oxumağın barədə nə düşünürlər?**

- Təəccüblənirlər. Deyirlər ki, çətin olar. Bu da normaldır. Çünki, onlar qrupumuzdakı ab-havanı bilmirlər.

**- Qrupun oğlanları səninlə sirlərini paylaşırlar?**

- Əlbəttə, olur. Əsasən sevdikləri qızlarla bağlı danışırlar. (gülür)

**- Təsəvvür et ki, Akademiyamızda tələbələr üçün yemək bişirməyi bir günlük sənə həvalə edirlər. Nə bişirərdin oğlanlar üçün?**

- Ən sevdiyim pomidor, badımcan, bibər dolmasını bişirərdim. Paytaxt salatı, bir də borş hazırlayardım. Düzü, bir neçə dəfə uşaqlar üçün evdə şirniyat hazırlayıb gətirmişəm. Dediklərinə görə bəyəniblər.

**- Nə sözün var oğlanlara?**

- Demək istəyirəm ki, hamısı mənim üçün əzizdir. Sizi çox istəyirəm, dostlar!

Hazırda ADDA-da Mədinədən başqa daha 5 xanım tələbə təhsil alır. Aytən Məmmədzadə ("Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisası,188 A1), Ayşən Şükürova ("Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisası,188 A2), Nərgiz Səfərli ("Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası,198 R), Fatimə Abbasova ("Dəniz naviqasiyası mühəndisliyi" ixtisası, 208 İ) və Rəhimxanım Salamova ("Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisası, 386 A) da təhsildə oğlanlardan geri qalmamağa çalışırlar.

***Musa ƏLİYEV,***
***İctimaiyyətlə əlaqələr üzrə mütəxəssis***

# NOVRUZ gəlir, Yaz gəlir

## SU ÇƏRŞƏNBƏSİ



***Yurdumuza əsrlərin sınağından çıxmış mənəvi dəyərləri, adət-ənənələri özündə yaşadan, bayramlarımızın şahı sayılan Novruz gəlir. Ta qədimdən Novruz təbiətin canlanmasının, torpağın oyanmasının, ruhun təzələnməsinin simvolu hesab olunub. Novruz təzə ili, baharın ilk gününü qarşılamaq, gecə ilə gündüzün bərabərləşməsi deməkdir. Xalqımız yeni gün olan Novruz ərəfəsində çərşənbələrə böyük önəm verir.***

Rəvayətə görə, Tanrı ilk insanı - Adəmi yaradarkən torpağa su qatıb, palçıqdan insan düzəldib, sonra ona isti nəfəs verib, baharda çiçəkləri, otları, ağacları oyadan yellərə əmr edib ki, onu canlandırsın. İnsan da bu dörd ünsürdən yarandığı üçün tarix boyu onları müqəddəsləşdirərək, hərəsinə bir gün ayırıb. Beləcə, yazın, Novruzun müjdəçiləri olan Su, Od, Yel, Torpaq çərşənbələri yaranıb.

Novruzun ilk çərşənbəsi – Su çərşənbəsi bu il fevralın 25-nə təsadüf etdi. Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaratmışdır. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Bəzi mənbələrdə ona "əzəl çərşənbə", "gül çərşənbə", "Sular Novruzu" da deyirlər. Su çərşənbəsində el arasında su ilə bağlı ayinlər, mərasimlər keçirilir.

Su çərşənbəsi suya tapınma ilə başlayır. Su üstündən atlanmaq, arzularını, diləklərini suya söyləmək, sübh tezdən evə bulaq suyu gətirmək və s. bu ayinlərdəndir. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır. Su çərşənbəsi ilə bağlı su falları da mövcuddur.

Folklorşünas Ramazan Qafarlı bildirib ki, Azərbaycan mifoloji təsəvvürlərində su çox hallarda odla əlaqəli təsvir edilir: "Belə ki, bir çox arxaik nağıllarda su həyatın əsas mənbəyi kimi göstərilir. Lakin insanlar sudan qıtlıq çəkirlər, ona görə ki, çayın mənbəyində çoxbaşlı əjdaha əyləşib. Ona yalnız gözəl qız qurban verəndə azca su buraxır. Əjdaha ağzından od püskürür. İsti və quraqlıq torpağın bağrını dəlik-deşik edir. Maraqlıdır ki, Su çərşənbəsindən sonra Od çərşənbəsi gəlir. Əgər birinci soyuğun sınması, qarların və buzların əriməsi, suların axıb çayları doldurması ilə əlaqələndirilirsə, ikincisi, onun səbəbi kimi nəzərə çarpır – od, isti olmasa qarlar, buzlar əriməz. Məhz ona görə də inanclarda, atalar sözü və məsəllərdə su ilə od birlikdə təqdim olunur: "Odu su ilə söndürmək günahdır", yaxud "Su ilə odun nə oyunu?".

Ramazan Qafarlı bildirib ki, çox hallarda həmişəaxar bulaqlar və çayların mənbələri müqəddəs yerlər sayılır. "Su çərşənbəsi mərasimində dan yeri söküləndə camaat su üstünə gedir. İlk növbədə, hamı əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, arx üstündən atdanır. Əski inama görə, Su çərşənbəsində Günəşin şəfəqdə göründüyü andan şüalarının dəydiyi su təzə və müqəddəs hesab edilirdi. Həmin suda yuyunan ürəyində tutduğu arzuya çatırmış. Tədqiqatçıların fikrincə, Xızırın dirilik çeşməsindən su içdiyi və Koroğlunun Qoşabulaqdan köpüklü su götürdüyü gün məhz Əzəl çərşənbə olmuşdur", - deyə o qeyd edib.

"Ulularımız su qırağında, bulaq başında, arx kənarında suya müraciətlə nəğmələr oxuyurdular", - deyən folklorşünas vurğulayıb ki, nəğmələrin bir qismində ilkin təsəvvürlər qorunub saxlanıb: "Allah, məni su elə, su gözəllər yüküdü" yalvarışında başlanğıca, ilkinə dönüş ideyası əks olunur. Doğrudur, sonralar nəğmələrin bəzi sözləri dəyişdirilmiş və bütövlükdə məhəbbət motivinə uyğunlaşdırılmışdır. Lakin dərin qatlardakı əski inanclarla səsləşmələr az da olsa, nəzərə çarpır. Belə ki, suya dönməklə qız eyni candan ayrılan sevgilisinə qovuşmaq ümidindədir. Başqa nümunədə "Aləmə can payladın" - deyə suya ilahi qüdrətə malik fövqəltəbii varlıq kimi üz tutulur, onun insanlara ancaq yaxşılıq etdiyi vurğulanır. Ümumiyyətlə, nəğmələrdə çox hallarda analar çaylardan, göllərdən qürbətə düşən oğlanlarının sorağını istəyirlər. "Kitabi-Dədə Qorqud"da su ona görə aydınlıq sayılır ki, tanrının üzünü görmüşdür".

Qeyd edək ki, bu il Azərbaycana yaz fəsli martın 20-də saat 07:49:36 saniyədə girəcək. Bu zaman gecə ilə gündüz bərabərləşəcək, Günəş ekliptika üzrə hərəkət edərək cənub yarım kürəsindən şimal yarım kürəsinə keçəcək və həmin andan şimal yarım kürəsində yaz fəsli başlayacaq.

## OD ÇƏRŞƏNBƏSİ



***Martın 3-də Azərbaycanda Novruz çərşənbələrindən ikincisi - Od çərşənbəsi qeyd olundu. Ona xalq arasında "üskü çərşənbə", "üskü gecəsi", "ikinci çərşənbə" və yaxud "addı çərşənbə" də deyilir.***

AMEA Folklor İnstitutunun böyük elmi işçisi Ataş Əhmədli AZƏRTAC-ın müxbiri ilə söhbətində xalqımızın odla bağlı adət-ənənələrindən, mərasimlərindən danışıb.

Ataş Əhmədli qeyd edib ki, Novruzun mənşəyi ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Diqqəti çəkən mülahizlərdən biri də Novruzun "Yaradılış bayramı" olmasıdır. Bu mülahizəyə görə, Tanrının dünyanı və insanı yaratması təbiətin yazda dirilməsi ilə simvolizə olunaraq həmin vaxtda bayram kimi qeyd edilir. Dünyanın yaranmasında iştirak edən dörd ünsür məhz dörd çərşənbədə qeyd olunur. Bununla da əsaslandırmaq olar ki, Novruz dünyanın və insanın yaradılmasının bayramıdır.

Onun sözlərinə görə, çox qədim zamanlarda yeni anadan olmuş uşağı odun başına dolandırmaqla pak edər, ancaq bundan sonra ananın qucağına verərdilər. Bu yolla paklaşmamış uşaq murdar hesab edilər, buna görə də ana onu rahatlıqla qucağına ala bilməzmiş. Bu inancın və xüsusi mərasimin çox aydın izi bu gün də "Çevir ocağa, al qucağa" kimi atalar sözündə görünməkdədir.

"Novruz bayramını od-ocaqsız, gur Novruz tonqalı olmadan təsəvvür etmək mümkün deyil. İnsanlar qaranlıq düşən kimi böyük tonqallar yandırır və onların alovu qaranlığı yararaq insanlarda böyük sevinc və coşqu, şən əhval-ruhiyyə yaradır. Bu cəhətdən Novruzla bağlı inanclarda odu müqəddəsləşdirmənin mühüm yer tutduğunu görürük. Ümumiyyətlə, od türklərin inanclarında mühüm mövqeyə malikdir. Türkoloq Seyfəddin Altaylı yazır ki, türklər tərəfindən od da eynilə su kimi müqəddəs sayılıb. Dünyanın yaradılmasında, yaz və od arasında bir əlaqənin olduğuna inanılıb. Bütün bu təsəvvürlər öz izlərini Novruz adətlərində əks etdirir", - deyə folklorşünas bildirib.

Novruzaqədərki hər bir çərşənbə axşamı tonqal qalanır, insanlar tonqalın üstündən tullanır. Xalqımızın Novruz mərasimləri barədə söhbəti davam etdirən A.Əhmədli qeyd edib ki, ümumiyyətlə, bu bayramda tonqalqalama xüsusi mərasimdir. Necə gəldi, harada gəldi tonqal qalamaq olmaz. Bunun xüsusi qaydaları, yəni mərasimi var. Məsələn, Şəkidə olduğu kimi, hər həyətdə böyük tonqal qalanır, ətrafında şənlənir, üstündən tullanıb deyirlər:

*Ağırlığım, uğurluğum odlara,*
*Tonqaldan atlanmayan yadlara.*
*Yaxud:*
*Ağrım-uğrum tökülsün,*
*Oda düşüb kül olsun.*
*Yansın alov saçılsın,*
*Mənim bəxtim açılsın.*

Axır çərşənbə tonqalı həm də ata-baba ruhları ilə bağlıdır. Məsələn adətlərdən birinə görə, ilaxır çərşənbələrdə evin işığını sübhəcən söndürməzlər, həyətdə tonqal qalanar. Ulu əcdadlarımız hesab edirdilər ki, ildə bir dəfə ölmüş babalarının ruhları öz nəvə-nəticələrinə baş çəkməyə gəlirlər. Ata-baba ruhlarının gəlişinin vaxtı İlaxır çərşənbələrə düşür. Əgər onlar görsələr ki, nəsilləri yaşayan evlərdə tonqallar qalanmır, ocaqlar sönüb, elə bilirlər ki, qoyduqları adət-ənənələr tapdanıb, övladlarına qalan var-dövlət göyə sovurulub, hər şey məhv olub, qayıdıb gedərlər və o tərəflərə hərlənməzdilər. Bir də ki, çərşənbə axşamı görsələr ki, ocaqlardan tüstü gəlmir, xörəklər bişirilmir, nəvə-nəticələri deyib-gülmürlər, küsülüdürlər, onda da inciyər və oralara gəlməzlər. Məhz bu inama görə, İlaxır çərşənbələrdə tonqallar qalanır, şənliklər keçirilir, umu-küsü aradan götürülür.

Lakin inanclara görə, Novruz tonqalının təkcə əcdad ruhları ilə deyil, həm də bədxah ruhlarla əlaqəsi var. Qazax bölgəsinin inanclarına görə, yeni il axşamı evdə, bayırda ocaq qalayar, şam yandırarlar ki, qara div, şər, pis nəzər onlardan uzaq olsun, qorxub qaçsın.

Bəzi bölgələrimizdə axır çərşənbə axşamında yandırılan tonqalın üstündən mal-qaranı, qoyun-quzunu da adladırlar ki, çillədə qalmasınlar. Çillə – köhnə ilin ağrı-acısı, qada-balasıdı, ocaqdan adlayanda hamısı tökülüb odda yanır.

Digər inanca görə, axır çərşənbə tonqalı ilə Novruz tonqalı bir-birindən ciddi fərqləndirilir. Yəni, bayram axşamında, ya da bayram günündə qalanan tonqala yaş ağac atılmaz. Yaş ağacı həmin ocağa atsan, ruzi-bərəkət çəkilər.

İnanclardan birinə görə isə çərşənbə axşamı lampanın altına bağlı qıfıl qoyur və niyyət edib gözləyirlər. Kim qapını açıb birinci evə girsə, onun ilk sözünü niyyətlərinə görə yozurlar.

## YEL ÇƏRŞƏNBƏSİ



***Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsi bu il martın 10-na təsadüf etdi. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yelli çərşənbə" və "Heydər çərşənbəsi" kimi tanınan Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsüdür.***

Yel çərşənbəsi günündə əsən isti külək yazın gəlişindən xəbər verir. İnanclara görə, bu çərşənbədə oyanan yel, külək oyanmış suyu, odu hərəkətə gətirir. Şifahi xalq yaradıcılığında yelin Tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl və s. yaranıb. Novruz şənliklərində icra olunan "Yel baba" mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın yel Tanrısına etiqadı ilə bağlıdır. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yelli çərşənbə" adı ilə də tanınan Yel çərşənbəsi dörd yaradılış ünsüründən biri olan havanın həyatverici gücü ilə bağlıdır.

Külək, hava anlayışları ilə bağlı folklorumuzda çoxşaxəli örnəklərə rast gəlinir. Yazın gəlişini tezləşdirmək üçün Yel babanı nəğmə ilə çağırardılar:

*A Yel baba, Yel baba,*
*Tez gəl, baba, gəl, baba.*
*Sovur bizim xırmanı,*
*Atına ver samanı.*
*Dən dağılıb dağ olsun,*
*Yel babamız sağ olsun.*
*A Yel baba, Yel baba,*
*Qurban sənə, gəl baba.*

Qədim inanca görə, Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürmək olmazdı. "Sovurulmamış buğda götürənin oğlu ölər, xırman sovrulandan sonra ilk buğda götürənin isə oğlu olar", deyərdilər.

Yel çərşənbəsinin geniş yayılmış inanclarından biri də bu çərşənbədə niyyət tutulmasıdır. Çərşənbə gecəsi söyüd ağacının altına gedib niyyət edər və Yel babanı çağırardılar. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetəcək. Yel çərşənbəsinin ayinlərindən biri də həmin gün həyətlərdə yelləncəklərin qurulması və oğul-uşağın, qız-gəlinin yelləncəklərdə yellənməsidir.

Deyilənə görə, Yel çərşənbəsi əsən külək təzəcə çıxmış otları oyadaraq, Novruzun gəlişi barədə xəbərdar edir.

İnanca görə, Yel çərşənbəsində hava təmizlənir. Dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel babanın şərəfinə xüsusi mərasimlər keçirilir, ayinlər icra olunur. Əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə dəyişməsi əslində onun özünün - küləyin, havanın təmizlənməsi, yenilənməsi kimi qəbul edilir. Bu çərşənbəyədək sanki mürgüləyən külək oyanır, aləmi dolaşaraq suyu, odu hərəkətə gətirir.

İlaxır çərşənbələrdən üçüncüsü və dördüncüsü ilə bağlı ziddiyyətli məqamlar da var. Bəzən yel və torpaq çərşənbələrindən hansının əvvəl olması mübahisə doğurur. Folklorşünas alim Azad Nəbiyev bu barədə tədqiqatlarında yazırdı ki, ilaxır çərşənbələrdən sonuncunun - Yel çərşənbəsi olması daha çox dini inanclara söykənir. Çünki dini etiqada görə, Allah yaradılış prosesində ən son olaraq hava-yel - yəni nəfəs-ruhdan istifadə edib. İnsana ruhun verilməsi ilə o, canlı varlıq halına gəlib. Lakin xalq inanclarına görə, təbiətdə ən son oyanış torpağa aiddir. Torpağın oyanması ilə həyat yenidən dirçəlir, yaşam prosesi təzələnir. Buna görə də ilaxır çərşənbələrdən üçüncüsü Yel, dördüncü, sonuncu isə Torpaq çərşənbəsi hesab edilir. Bu məntiqlə Yel çərşənbəsi yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər torpaq və su yaradılışın maddi əsasını təşkil edirsə, od və yel kənar vasitəçi, təkanverici statusunda çıxış edir. Yaradılış mifologiyasında torpaqla suya daha çox stabillik, yellə oda isə dinamiklik, hərəkət xasdır. Bu mənada yel, hava birbaşa ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir. Əski türk mifoloji mətnlərində bu məntiqdən irəli gələrək yel daha çox antropomorflaşdırılıb, canlı, çevik bir varlıq kimi təsəvvür edilib. Bu təsəvvürlər daha çox "Yel baba" mifik obrazında cəmlənib. Bəzən Yel baba mənfi obrazda xatırlansa da, əksər hallarda müsbət obrazda özünü göstərir.

Qədim inanclarda Yel dağının da adı keçir. İnsanlar ürəklərində hər hansı bir dilək tutub o dağı ziyarət edir, nəzir-niyaz gətirir, qurban kəsirlər. Yel baba kimin nəzirini, qurbanını qəbul etsə, o adam xeyir tapar, arzusuna çatar.

Maraqlıdır ki, "Yel baba" ritual nəğməsində də can üstə olan gənc qız sanki son nəfəsində üzünü küləyə tutub, ölüm xəbərini anasına aparmağı xahiş edir. Ola bilsin ki, ilkin inanclarda Yel baba məhz dünyanın ayrı-ayrı elementləri arasında rabitə yaradan vasitə sayılırdı. Yəqin elə buna görədir ki, Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsü olaraq sonuncu torpaq çərşənbəsi ilə bayram axşamı - Novruz günü arasında bir növ bağlılıq, təbiəti yekun oyanışa hazırlayan çərşənbə hesab edilir.

## TORPAQ ÇƏRŞƏNBƏSİ



***Torpağın və həyatın oyandığı İlaxır çərşənbə - Torpaq çərşənbəsi bu il martın 17-sinə təsadüf edəcək.***

İlaxır çərşənbə Su, Od və Yel çərşənbələrindən sonra gəlir. İnanca görə, sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır. Torpaq bütün canlılara həyat verir və Uca Allahın yaratdıqlarının hamısı, o cümlədən insanlar onun qoynuna sığınırlar.

Uzun qış aylarında insanların evlərində saxladığı ərzaqlar tükənir. Əfsanəyə görə adamların əziyyət çəkdikləri bu gündə Su, Od Yel və Torpaq xatunun yeraltı məbədinə qonaq gəlir və burada yatmış Torpağı oyadırlar. İlaxır çərşənbədə torpaq artıq əkinə hazır olur və ona toxum səpməyə başlayırlar. İnsanlar havanın mülayimləşməsinə, suların donunun açılmasına, çayların suyunun artmasına və torpağın canlanmasına sevinib, bu təbiət hadisəsinin hər birini (çərşənbələri) müxtəlif mərasimlərlə qeyd edirlər.

Boz ayın sonuncu çərşənbəsi olan İlaxır çərşənbə isə xalqımız tərəfindən böyük coşqu ilə qeyd olunur. Ölkəmizin bəzi bölgələrində İlaxır çərşənbə hətta Novruz bayramı qədər təntənəli keçirilir.

İlaxır çərşənbədə həyət-bacalarda tonqal qalanır, hər bir evdə xonçalar bəzənir, bayram süfrəsi açılır. Həmin gün küsülülər barışmalıdırlar. Qapı pusma, evdə ailə üzvlərinin hər birinin adına niyyət tutub şam yandırma, qonşularla, qohumlarla bayramlaşma və bir çox adət-ənənələr bu gün də yaşadılır.

Həmçinin bu günün başlıca özəlliyi ondan ibarətdir ki, qəbir üstünə gedilər, ölülərin ruhuna Quran oxunar, dua edilər. Axşam isə tonqalın üstündən yeddi dəfə o yan–bu yana atılar, bununla da insanlar köhnə ilin azar-bezarını, dərd-bəlasını özlərindən qovub, təzə ilə sağlam canla qədəm qoyacaqlarına, xəstəliklərdən qorunacaqlarına inanırlar.

İlaxır çərşənbədə bayram xonçasına Novruzun atributları olan səməni, paxlava, şəkərbura, qoğal, boyalı yumurtalar, müxtəlif çərəzlər - qoz, fındıq, iydə ilə yanaşı, həm də meyvə quruları da qoyulur və şamlar yandırılır.

İlaxır çərşənbələr müxtəlif mərasim ənənələri ilə zəngindir. Ev adətləri ilə bağlı ən əsas adətlərdən biri ev təmizləmədir. Bəzi yerlərdə buna "evatdı" deyirlər. Bu ənənənin əsas mahiyyəti ev-eşik təmizliyi ilə bağlıdır.

Belə ənənələrdən biri "ağacqorxutma" adətidir. Bu, ilaxır çərşənbələrin açıq formada magik mahiyyətli ənənələrindəndir. Bəzən bağdakı bir ağac meyvə vaxtı bar vermir. Bu zaman, xüsusilə axır çərşənbədə həmin ayin icra olunur. Bir nəfər əlinə balta alıb ağacın yanına gəlir və üzünü ağaca tutaraq deyir ki, "əgər bu il bar verməsən, meyvə gətirməsən, səni bu balta ilə kəsəcəyəm". Bu ayinin mahiyyətində yenilənmə durur. Ev-eşikdən köhnə, sınıq, yararsız əşyalar atıldığı kimi, bağ-bağatda da quru ağaclar kəsilir, qurumuş budaqlar budanır. Bar verməyən, lakin sağlam olan ağaclar qorxudulur.

Üzərliyin Azərbaycan inanclar sistemində nə qədər yayğın inanc olması hər kəsə məlumdur. Üzərlikyandırma Novruz mərasim kompleksində təmizlənmə – yenilənmə ilə bağlı icra olunan ayinlərdəndir. İnsanlar Novruz tonqalına üzərlik atar, bununla da ev-eşiyə, mal-qaraya, ev sakinlərinə yönəlmiş hər hansı mənfi nəzərin təsirini aradan qaldırarmışlar. Bunun üçün onlar üzərliyin tüstüsünü ev sakinlərinə, evə, mal-qaraya tərəf piləyərmişlər. Bu adət indi də çox yayğındır. Üzərlikyandırma təzələnmə – yenilənmənin mühüm ayinlərindəndir. Üzərlik vasitəsilə bəd nəzər, pis arzular təmizlənir. Bu, bir növ, magik profilaktikadır.

İlaxır çərşənbənin və ümumiyyətlə, 4 çərşənbənin hər birinin ən ayrılmaz və əvəzolunmaz atributu tonqal qalamaqdır. Xüsusilə, ilaxır çərşənbədə tonqal qalanır, insanlar "ağırlığım-uğurluğum bu odda qalsın" deyib onun üzərindən tullanırlar. Bu, axır çərşənbənin ən mühüm və açıq magik xarakterli ayinlərindəndir. Bu zaman nəğmələr də oxunur. Həmin nəğmələr məzmun və mahiyyətcə odla, təmizlənmə ilə bağlı alqış-dualardır.

İlaxır çərşənbələrlə bağlı icra edilən mərasimlərdən biri "danatma" adətidir. Mərasim Novruz gecəsi icra olunur. İnsanlar səhərə qədər oyaq qalır, Günəşi qarşılayırlar. Mərasim özündə mifoloji inancları və magik ayinləri birləşdirir.

Axır çərşənbənin əsas adətlərindən biri "qurşaqatdı" adətidir. Buna bəzi yerlərdə qurşaqsallama, şalsallama, baca-baca, yaxud nünnünü də deyilir. Məzmunu axır çərşənbə gecəsi evlərə papaq atıb, pay istəməkdir. Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırılan torba atmaqdır.

## Qanunsuz ovlanan heyvanlara görə 2 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq edilə bilər



***Azərbaycanda qanunsuz ovlanan heyvanlara görə cərimənin məbləğlərini bilirsiniz?***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Arzu Səmədova bildirib ki, qanunvericiliyə görə, lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, qadağan edilmiş alət və üsullarla ovetmə 1000 manatdan 2000 manatadək cərimə və ya 1 ilədək islah işləri, yaxud 2 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Qanunvericiliyə görə qanunsuz ovla bağlı cərimələrin miqdarı ovlanan heyvanlara görə dəyişir. Məsələn, bir baş bəbir üçün cərimə məbləği 3300, bir baş ceyran ovlamaq 550, bir baş qonur ayı üçün 440, bir baş şahin quşu üçün 1100, bir baş bəzgək üçün 330, bir baş dovdaq üçün 550, bir baş turac üçün 330, bir baş qu quşu üçün isə 550 manatdır.

Sadalanan heyvan növləri dövlət təbiət qoruqları ərazisində və ya milli parkların xüsusi mühafizəsinin hüquqi rejimi tətbiq edilən zonalarında qanunsuz olaraq məhv və ya əldə edilərsə, təbiətə dəymiş ziyana görə ödəmələr hər heyvan növü üçün təyin olunmuş məbləğ 3 qat hesablanır. Belə ki, həmin ərazilərdə bir baş bəbir qanunsuz ovlanarsa 9900 manat, ceyran üçün 1650 manat, qonur ayı üçün 1320 manat, şahin quşu üçün 3300 manat, bəzgək üçün 990 manat, dovdaq üçün 1650 manat, turac üçün 990 manat, qu quşu üçün isə 1650 manat cərimə tətbiq edilir.

## Ada 1577-ci ildə dünya səyahətinə çıxmış admiral Frensis Dreykin adını daşıyır



***Böyük Britaniyanın Dreyk Adası 30 ildən sonra yenidən ictimaiyyətə açılacaq. Adanın adı 1577-ci ildən dünya səyahətinə çıxmış admiral Frensis Dreykin adı ilə bağlıdır.***

Adaya ilk tur martın 15-də təşkil olunacaq.

Altı hektarlıq adada XVI əsrdən qalma qala, həbsxana, körpü və yeraltı tunellər şəbəkəsi var. 1989-cu ildən bəri ictimaiyyət üçün bağlanan ada 2019-cu ildə Morqan Filips tərəfindən alınıb.

*Aynurə Tağıyeva*

## Konstitusiyada Allahın adının çəkilməsi təklif edilib



***Rusiya Müsəlmanlarının Mərkəzi Dini İdarəsinin sədri, Rusiyanın ali müftisi Talqat Tacuddin Konstitusiyada Allahın adının çəkilməsi barədə düzəlişi dəstəkləyib.***

T.Tacuddin Allahı tanımağın bütün dinə aid insanların daxili mahiyyətini təşkil etdiyini bildirib.

Qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putin Konstitusiyanın 67.1-ci bəndində Allahın adının çəkilməsini təklif edib. Düzəlişlər qəbul edilərsə, bu bənd belə səslənəcək: "Minillik tarixlə birləşmiş Rusiya Federasiyası idealları və Allaha inamı bizə ötürmüş əjdadlarımızın xatirəsini, eləcə də Rusiya dövlətinin inkişafında varisliyi qoruyub saxlayaraq, tarixən formalaşmış dövlət birliyini tanıyır".

Bundan əlavə, Prezident konstitusiyada rus dilinə dövlət dili statusunun verilməsini də təklif edib. Dini İdarənin sədri bu təklifi də dəstəkləyərək deyib ki, rus dili Rusiyada millətlərarası ünsiyyət dildir. Ölkədə yaşayan 193 böyük və kiçik xalqlar rus dili vasitəsi ilə ünsiyyət qururlar.

*Fəridə Abdullayeva*

## Balıqçı gəmisi ilə toqquşan yük gəmisi batıb

***Yaponiyanın Aomori prefekturasının sahillərində Beliza bayrağı altında üzən "Guoxıng-1" yük gəmisi batıb.***

Kyodo agentliyi xəbər verir ki, balıqçı gəmisi ilə toqquşan yük gəmisinin13 nəfər heyət üzvü itkin düşüb. Gəmin bütün heyət üzvlərinin əcnəbilərdən ibarət olduğu qeyd edilir. Onların arasında ÇXR, Vyetnam və Filippin vətəndaşlarının olduğu bildirilir. Yalnız bir nəfəri xilas etmək mümkün olub.



Eyni zamanda, göyərtəsində 15 nəfərin olduğu balıqçı gəmisinin sərbəst şəkildə limana qayıtdığı bildirilir.

*Vüqar Ağayev*



***Avstraliyanın Yova şəhərinin sakinləri leysan yağışdan sonra əmələ gəlmiş gölməçələrdə balıqların üzdüyünü aşkar ediblər.***

Sakinlərin bildirdiyinə görə, həmin balıqların uzunluğu 7 santimetrə çatır. Bu balıqlardan çoxunun sağ olduğu da bildirilir.

## Balıq yağışı?

Qeyri-adi yağışın "Ester" tropik siklonu ilə əlaqədar olduğu qeyd edilir. Həmin siklonun fevralın sonlarında Sakit okeanın cənubunda əmələ gəldiyi və Avstraliyanın şimal hissəsindən keçərək onun qərbinə çatdığı bildirilir. Hazırda geri qayıdan siklon bəzi yerlərdə daşqınlara da səbəb olub.

Mütəxəssislərin bildirdiyinə görə, balıq yağışı Avstraliya üçün heç də qeyri-adi hal deyil. Belə yağışlar azı ildə bir dəfə güclü qasırğa zamanı müşahidə edilir.

## Azərbaycanda 5082 nəfər ad gününü dörd ildən bir qeyd edir

***İlin ən qısa ayı olan fevral 28 gündən, dörd ildən bir isə 29 gündən ibarət olur.***

Ədliyyə Nazirliyi bu tarixdə yaşanan müxtəlif qeyri-adi hadisələrin ictimaiyyət üçün maraqlı olduğunu nəzərə alaraq, Azərbaycanda fevralın 29-da doğulan vətəndaşlarımız barədə statistik rəqəmləri təqdim edir.




Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, hazırda Azərbaycanda bu tarixdə doğulan 5082 nəfər var. Onlardan 2505 nəfəri kişi, 2577 nəfəri isə qadındır. 18 yaşına çatmayan şəxslərin sayı 1306 nəfərdir (669 kişi, 637 qadın). Gənclərin (14 yaşdan 29 yaşadək) sayı 1111 nəfərdir (569 kişi, 542 qadın), yaşı 29-dan yuxarı olan şəxslərin sayı isə 2889 nəfərdir (1388 kişi, 1501 qadın). Onlardan 2074 nəfəri 40 yaşdan, 1199 nəfəri 50 yaşdan, 670 nəfəri 60 yaşdan, 104 nəfəri 70 yaşdan, 48 nəfəri 80 yaşdan yuxarı olanlardır.

## Limanın rəhbərliyi yük və böyük sərnişin gəmilərinin marşrutlarında da rəqəmsal texnologiyaların tətbiq edilməsini nəzərdə tutur

***Əbu-Dabi limanında turistlər və iş adamları üçün daha bir yenilik tətbiq ediləcək. Qlobal gəmiçilik dizayneri və yaxtaların istehsalı üzrə ixtisaslaşmış "Robert Allan Ltd" şirkəti Əmirliyin limanında insan müdaxiləsi olmadan və rəqəmsal texnologiya vasitəsilə özünü idarə edən kiçik gəmi marşrutları açacaq.***



Texnologiyanın ən son nailiyyətləri ilə təchiz ediləcək yaxta marşrutlarının açılmasına dair Əbu-Dabi limanı ilə şirkət arasında anlaşma Memorandumu imzalanıb. Qeyd olunub ki, geniş tutumlu və dünya standartlarına uyğun yüksək xidmət təqdim edəcək gəmi marşrutları tezliklə yerli və əcnəbi turistlərin sərəncamına veriləcək. Kiçik gəmilər hava şəraitinə uyğun təhlükəsizlik sistemi ilə də təchiz olunacaq. İstehsalçı şirkət bəyan edib ki, avtomatik idarəetmə sistemi sərnişinlər üçün daha təhlükəsiz olacaq.

Əbu-Dabi limanı bu populyar biznes sahəsini genişləndirmək məqsədilə Kanadanın "Naval Architecture-Marine Engineering" firması ilə də sıx əməkdaşlıq edir. Limanın rəhbəri Məhəmməd Əhbabi bildirib ki, imzalanan sənəd kiçik gəmilərdən ibarət səyahət marşrutlarının rəqəmsal transformasiyasında məhək daşı rolunu oynayır. O əlavə edib ki, Birləşmiş Ərəb Əmirlikləri dənizçilik sahəsində yeni texnologiyaların tətbiqində lider dövlətə çevrilmək arzusundadır.

Turizmlə yanaşı, Əbu-Dabi limanının rəhbərliyi yük və böyük sərnişin gəmilərinin marşrutlarında da rəqəmsal texnologiyaların tətbiq edilməsini nəzərdə tutur.

## Yeni kəşf olunmuş yosunlar yalnız Qırmızı dənizdə olur və su akvatoriyasının istiləşməyə müqavimətini təmin edir

***Qahirə, Esseks və Əl-Əzhar universitetlərinin tədqiqatçıları Qırmızı dənizin şimalında iqlim dəyişikliyinin mərcan riflərinə təsirini araşdırıblar. Alimlər bu məqsədlə onların tərkibində olan yosunları tədqiq ediblər. Onların gəldikləri qənaət bu faydalı bitkilərin ekoloji üstünlükləri ilə əlaqədar yeni detalları üzə çıxarıb.***



Əl-Əzhar Universitetinin tədqiqatçısı İslam Osman bildirib ki, yeni kəşf olunmuş yosunlar yalnız Qırmızı dənizdə olur və su akvatoriyasının istiləşməyə müqavimətini təmin edir. Onun sözlərinə görə, mərcan riflərinin daxilində olan bu bitki onlara qida və oksigen verir. Bu isə, öz növbəsində, mərcan riflərini ətraf mühitin mənfi təsirindən qoruyur. "Okean temperaturunun qalxması nəticəsində ağ rəngə çalan mərcan rifləri yosunların təsiri ilə normal hərarətə qayıdır və öz rəngarəngliyini qoruyur. Bizim mikroskopla tərkibini öyrəndiyimiz mərcan riflərinin nümunələri göstərdi ki, yosunların bakterioloji tərkibi olduqca unikaldır", - deyə tədqiqatçı vurğulayıb.

Almaniya, Səudiyyə Ərəbistanı, ABŞ və Avstraliya alimlərinin də iştirak etdiyi tədqiqatın nəticələri "BMC Microbiome journal" elmi nəşrində dərc olunub. Məqalədə qeyd olunur ki, yosunların tərkibində olan DMSP adlanan maddə mərcan riflərinin tərkibindəki toksik bakteriyaları xaric edir və onları istinin təsirindən qoruyur. Alimlərin qənaətinə görə, bu amillər Qırmızı dənizin şimalındakı nadir sərvəti planetimizin ən çox qorunan ekoloji sisteminə çevirir.

ABŞ-ın Milli Okeaniya və Atmosfer Administrasiyasının (NOAA) 2018-ci ilə olan məlumatında qeyd olunur ki, dünyada olan mərcan riflərinin 75 faizi qlobal istiləşmənin təsirinə məruz qalır, onların 30 faizi isə məhv olma təhlükəsi ilə üz-üzədir.

## BƏƏ ərəb dünyasında atom enerjisindən dinc məqsədlə istifadə edən ilk dövlət olduğunu elan edib

***Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ərəb dünyasında atom enerjisindən dinc məqsədlə istifadə edən ilk dövlət olduğunu elan edib.***



Bununla əlaqədar ölkənin Nüvə Enerjisi Korporasiyası (ENEC) məlumat yayıb. Qeyd olunub ki, təhlükəsiz, ekoloji cəhətdən təmiz və etibarlı "Bərəkah" AES-in birinci blokuna yanacaq doldurulması uğurla başa çatıb və stansiyanın bir hissəsi işə salınacaq. AES-in işlədilməsini üçün BƏƏ Federal Nüvə Tənzimlənməsi Administrasiyası (FANR) ötən ay müvafiq lisenziya verib.

ENEC-in təmsilçisi Məhəmməd Həmmadi bildirib ki, onun ölkəsi ərəb aləmində ilk dəfə AES-in bir blokunun tikintisini uğurla başa çatdırıb və stansiyanın texniki personalının 90 faizi Cənubi Koreyada kurslarda iştirak etmiş yerli mütəxəssislərdən ibarətdir. Onun sözlərinə görə, stansiyanın istismara verilməsindən əvvəl 255 sınaq və yoxlama keçirilib. Bundan başqa, Beynəlxalq Atom Enerjisi Agentliyi, Dünya Nüvə Operatorları Assosiasiyasının ekspertləri də "Bərəkah" AES-də yoxlamalar aparıblar. Onlar stansiyanın bütün müasir standartlara cavab verdiyini qeyd ediblər.

Əbu-Dabinin Dhəfrə regionunda yerləşən AES-in tam istifadəyə verilməsi üçün işlər davam etdirilir. Artıq digər bloklarda inşaat tamamlanmaq üzrədir. "Bərəkah" AES dörd blokdan ibarət olacaq və BƏƏ-nin elektrik enerjisinə olan tələbatının 25 faizini təmin edəcək.

*Oqtay Bayramov*

## Milyonlarla insan səslərdən əziyyət çəkir

***Avropada 113 milyon insan davamlı olaraq avtomobillərin, 22 milyon insan qatarların, 4 milyon insan təyyarə və digər hava nəqliyyatının səbəb olduğu səslərdən və 1 milyon insan isə sənaye istehsalı zamanı meydana çıxan səslərdən əziyyət çəkir.***



Avropa Ətraf Mühit Agentliyi xəbər verir ki, qeyd edilən səslər insanlarda ciddi sağlamlıq probleminin meydana çıxmasına gətirib çıxarır. Hesablamalara görə, qitənin 22 milyon əhalisi nəqliyyatın gurultu təsirinə davamlı olaraq məruz qalır, 6,5 milyon sakini isə sağlamlığa zərər yetirən səslərə məruz qaldıqları üçün yuxusuzluqdan əziyyət çəkir. Ümumilikdə Avropada bu səslərin zərərli təsirlərinin nəticəsi olaraq 12 min insan hər il vaxtından əvvəl dünyasını dəyişir.

Avropa Ətraf Mühit Agentliyi 2014-cü ildən bəri insan sağlamlığına zərərli olan səsləri azaltmağa çalışsa da bu istiqamətdə hər hansı uğur əldə etmək mümkün olmayıb. Əksinə, araşdırmalar göstərir ki, qeyd edilən problem gələcəkdə daha da kəskinləşəcək.

## Antarktidada 15 layihə üzrə araşdırma aparılır

**Yer, canlı və dəniz elmləri üzrə mütəxəssislərdən ibarət Türkiyənin Qütb Araşdırma İnstitutunun 24 nəfərlik heyəti Antarktidaya göndərilib.**

Bu barədə Türkiyənin Sənaye və Texnologiya naziri Mustafa Varank məlumat verib.

Bildirilib ki, elm adamları orada IV Beynəlxalq Antarktida Elm Səfəri çərçivəsində 15 layihə üzrə araşdırmalar aparırlar. Tədqiqatlar dünyadakı qlobal istiləşmə və iqlim dəyişikliyi kimi bir çox problemləri əhatə edir.



## YARIZARAFAT, YARIGERÇƏK

**Sən özün düzəl, vəziyyətin isə sənsiz düzəlmək ehtimalı daha çoxdur.**

**Tələmtələsik yalan deməyə nə ehtiyac?**

**Bəzilərinə baxanda adama elə gəlir ki, yalnız qarın üçün dünyaya gəliblər.**

**Ən adi işlərdə cahil olan bəzən ən mühüm işlərdə göstəriş verir.**

**Çox şirinsən. Mənə isə çox şirin şeylər olmaz.**

**Qaranlıqda həmişə işıq barədə fikirləşirik. İşıqlığa çıxan kimi də qaranlığı unuduruq.**

**Özünü hər şeyi bilən kimi göstərmək belə vacibdir?**

**Haqq həmişə yerində olur. Sadəcə nahaq qabağını elə kəsir ki, görmək istəməyənlər, haqqı görmürlər.**

**Yalanları inandırıcı görünür. Çox uzağa gedəcək.**

**Gəl xudahafizləşək. Mən qayıdana oxşamıram.**

**Siqaret çəkməmək üçün ən doğru yol onu yandırmamaqdır.**

**Elə ölkələr var ki, orada xoşbəxt olmaq üçün doğulmurlar.**

**O qədər uzaqlaşmaq lazım deyil ki, özünə qayıda bilməyəsən.**

**Həyatda ən gözəl günlərinin keçdiyini düşünürsənsə, deməli keçib.**

**Dostun həqiqi olmaya bilər, bu, o demək deyil ki, həqiqi dost yoxdur.**

**Kimə lazım olacaq ki? Məni yəqin həqiqətlə bir yerdə basdıracaqlar.**

**Nədən danışacağınızı bilirəm. Qaldı necə danışacağınıza, həmişə danışdığınız kimi.**

**Özbaşınalıq baş alıb gedən yerdə hərə öz başının hayında olur.**

**Mən ancaq təəssüf edirəm. Əlimdən başqa nə gəlir ki?!**

**Cavab lazımdırsa, elə suallar vermə ki, yayınmaq mümkün olsun.**

**Hadisələrə başqasının gözüylə yox, başqa gözlə baxın.**

**Güvənlik bir iş görməyən niyə düşünür ki, ona güvənməlidirlər?**

**Bir işi düz olmayan da çox işin düz olmadığından gileylənir.**

**Ən yaxşı danışanlar vaxtında susmağı bacaranlardır.**

**Yalan deməmək işin yarısıdır. Qalan yarısı həqiqəti deməkdir.**

**Ölümün nə olduğunu məndən soruş. Neçə dəfə başqasının yerinə ölüb-dirilmişəm.**

**Yanıldığımı deyirsən? Sənə yaxşı adam demişəm ki?**

**Ölüm nə vaxt gələcəyini çox yaxşı bilir. Sən tez-tez əl-ayağa düşmə.**

**Hardasan? Sadəlik və düzlük olmayan yerdə?**

**Söz gücsüz olan yerdə söz adamını qabağa vermə.**

**Həmişə özüm olmağa çalışmışam. Nə çətin iş imiş özün olmaq.**

**Ən pisi odur ki, sənin haqlı olmağın heç kimin vecinə deyil.**

**Pul insanı hər hansı ideyadan daha yaxşı yönəldir.**

**Fikirlərimiz üst-üstə düşür. İkimiz də mənim haqqımda yüksək fikirdə deyilik.**

**İşdən başqa, hər işlə məşğul olanların işdə nə işi var?**

**Yaxşı adamlardan pis heç nə çıxmadığı kimi, pis adamlardan da yaxşı heç nə çıxmır.**

**Bu qədər arifi basıb keçməyindən böyük cahilə oxşayır.**

**Aramızda böyük məsafə var və xoşbəxtlikdən iştahası artdıqca, aramızdakı məsafə də artır.**

**Gələcək yaltaqlarındır?**

***Rasif TAHİROV***

## Sabiq dünya çempionu 600 milyon dollar qarşılığında döyüşməyə hazır olduğunu bildirib

***Məğlubedilməz amerikalı boksçu Floyd Meyvezer irlandiyalı Konor Makqreqor və ya rusiyalı Həbib Nurməhəmmədov ilə döyüşməyə hazır olduğunu bildirib.***



Beş çəki dərəcəsində sabiq dünya çempionu 600 milyon dollar qarşılığında bu döyüşləri keçirməyə razıdır. Tanınmış boksçu onu da vurğulayıb ki, rinqə qayıdacaqsa, sıradan olan boksçularla döyüşməyəcək.

F.Meyvezerin aktivində boks qaydaları üzrə 50 qarşılaşmada 50 qələbə var. O, 5 çəki dərəcəsində çempion adına layiq görülüb. 2017-ci il avqustun 26-da keçirilən sonuncu boks qarşılaşmasında amerikalı texniki nokautla irlandiyalı Konor Makqreqora qalib gəlib.

Bundan əvvəl yüngül çəki dərəcəsində Mütləq Döyüş Çempionatı (UFC) kəmərinin sahibi rusiyalı Həbib Nurməhəmmədov Meyvezerə qarışıq təkbətək döyüş qaydaları üzrə görüş keçirməyi təklif etmişdi. Lakin amerikalı rusiyalı ilə yalnız boks qaydaları üzrə qarşılaşmağa hazır olduğunu bildirmişdi.

## Bakıda keçiriləcək bədii gimnastika üzrə dünya kuboku “Tokio 2020”yə lisenziya xarakteri daşıyacaq

***2019-cu ildə uğurla təşkil edilmiş bədii gimnastika üzrə dünya və Avropa çempionatları da daxil 4 beynəlxalq yarışdan sonra Azərbaycan Gimnastika Federasiyası (AGF) cari ildə də bu növ üzrə yarışlara hazırlaşır.***




AGF xəbər verir ki, gimnastikanın ən zərif nümayəndələrinin yarışları ənənəyə uyğun olaraq apreldə keçiriləcək. Aprelin 24-26-da təşkil ediləcək dünya kubokunda iştirak edəcək ölkələrin ilkin qeydiyyat siyahısı yaxın günlərdə bəlli olacaq.

Kubokun iştirakçıları Olimpiadaya vəsiqə qazanmaq şansı əldə edəcəklər. Bakıda təşkil olunan dünya çempionatından “Tokio 2020”yə lisenziyasız qalan gimnastlar bu yarışlarda güclərini bir daha sınayacaqlar.

Yarışın ilk 2 günü təsnifat mərhələləri baş tutacaq və çoxnövçülükdə ən yüksək xal toplamış 8 fərdi gimnast, həmçinin qrup komandaları final mərhələsinə adlayacaq. Yarışın sonuncu günü isə həlledici final mərhələsinin qalibləri müəyyənləşəcək.

Ənənəyə uyğun olaraq, bu turnirdə də ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi “AGF Trophy” kuboku təqdim olunacaq.

## Avropa çempionatının qitənin 12 şəhərində keçirilməsi planlaşdırılır

***2020-ci il futbol üzrə Avropa çempionatı və baş qaldıran koronavirusun bu turnirin keçirilməsinə yaratdığı təhlükə Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) Niderlandın paytaxtında keçirilən konqresinin əsas mövzusu olub.***




Təşkilatın prezidenti Aleksander Çeferin xəstəliyin Avro-2020-nin keçirilməsinə heç bir maneə törətməyəcəyinə əminliyini ifadə edib.

Avropa çempionatının qitənin 12 şəhərində keçirilməsi planlaşdırılır. Turnirin oyunlarına Sankt-Peterburq, London, Münxen, Bakı, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdam ev sahibliyi edəcək. Matçlar 12 iyun-12 iyul tarixlərində keçiriləcək.

“Biz Avropa çempionatını 12 ölkədə təşkil edirik, müxtəlif məsələlərin, o cümlədən bu virusun da öhdəsindən gələcəyik. Biz turnirin baş tutacağına əminik, nikbin əhval-ruhiyyədəyik. Kədərli ssenarilər barədə düşünmək istəmirik”, - deyə Çeferin qeyd edib.

UEFA-nın baş katibi Teodor Teodoridis bildirib ki, təşkilat turnirin oyunlarının koronavirusla əlaqədar digər ölkələrə keçirilməsi variantına baxmaq fikrində deyil. O deyib: “3-4 ay sonra nələr baş verəcəyini demək hələ tezdir. UEFA vəziyyətə həddən artıq kəskin reaksiya vermək istəmir”. UEFA katibi, əlavə edib ki, qurum bu məsələ ilə bağlı Dünya Səhiyyə Təşkilatı ilə sıx əlaqə saxlayır.

Baş katib, həmçinin qeyd edib ki, təşkilatın himayəsi ilə keçirilən digər oyunlarla bağlı məsələlər müəyyən ölkələrin hakimiyyət orqanları ilə əlaqə saxlanılaraq fərdi şəkildə nəzərdən keçirilir. İtaliyanın “İnter” və Bolqarıstanın “Ludoqorts” komandaları arasında Avropa Liqasının 1/16 finalının cavab matçı koronavirus təhlükəsi ilə bağlı fevralın 27-də Milanda tamaşaçısız keçib.

## Meyvə şirələri yeməkdən 30-40 dəqiqə əvvəl içilməlidir



***Meyvə şirələrinin tərkibində olan vitaminlər, mineral duzlar, mikroelementlər və digər qida komponentləri insan orqanizmi üçün faydalıdır. Onlar həm təbii, həm də qablaşdırılmış formalarda hazırlanır. Meyvə şirələri düzgün qəbul edilməyəndə isə orqanizmə heç bir fayda vermir.***

Diyetoloq Ləman Süleymanovanın bildirdiyinə görə, meyvə şirələri çəkiləndən sonra uzun müddət saxlanılmamalıdır: “Təzə çəkilmiş şirə həmin müddətdən artıq qalanda tərkibindəki bioloji maddələr dağılır. Həmin şirələri yeməkdən ən azı 30-40 dəqiqə əvvəl içmək daha faydalıdır, çünki bu zaman orqanizm onu daha tez sorur və biokimyəvi proseslər asan gedir. Yeməkdən dərhal sonra şirə içmək, xüsusilə meyvə şirəsi qəbul etmək məsləhət görülmür. Qəbul edilmiş qidanın meyvə şirəsi ilə qarışması bağırsaqlarda köp yaranmasına səbəb olur”.

O, daha sonra deyib: “Alma şirələrinin tərkibində olan pektin maddəsi orqanizmdə şlakların, yəni yoğun bağırsaqda toplanan həzm olunmamış qida qalıqlarının parçalanmasına kömək edir. Ona görə də fitneslə məşğul olanların və ya çəki problemi ilə üzləşənlərin alma şirəsi qəbul etməsi məsləhətdir”.

Çəyirdəkli meyvələrin - ərik, zoğal, gavalı, şaftalı meyvələrinin şirəsini digər şirələrlə qarışdırmaq məsləhət görülmür. Diyetoloqun fikrincə, təbii meyvə şirələri ilə yanaşı qablaşdırılmış şirələrdən də istifadə edərkən diqqət yetirilməli bir sıra məqamlar var: “Qablaşdırılmış meyvə şirələri bir sıra texniki emal prosesləri keçdikdən sonra müəyyən banka, butulka və ya qablara yığılır. Daha yaxşısı təktərkibli meyvə şirələrinin qəbul edilməsidir”.

Tumlu meyvələrin – alma, armud və üzüm meyvələrinin şirəsini isə digər şirələrlə qarışdırmaq olar.

## Yağlı qidalar orqanizmdə ağır maddələr əmələ gətirir



***Düzgün qidalanmaq, orqanizmə zərər verən məhsullardan uzaq olmaq sağlamlığın əsas şərtlərindən biri sayılır. Qəbul edilən qidaların tərkibi nə çox yağlı, nə də çox duzlu olmamalıdır.***

Həkim-diyetoloq Ləman Süleymanova bu barədə deyib: “Bişirilən qidalara aşırı dərəcədə yağ əlavə etmək düzgün deyil, çünki onların reaksiyasından orqanizmdə ağır maddələr əmələ gəlir. Xüsusilə arterial təzyiqi yüksək olanlara, ürək-damar xəstəliyindən əziyyət çəkənlərə belə qidalar mənfi təsir edir. Yağın çoxluğu həzm prosesini ləngidir və şəkərli diabet xəstələri üçün həyati təhlükəyə səbəb ola bilər”.

Tez-tez yemək, yağlı yeməklərlə bərabər qazlı sular içmək tamamilə yanlışdır. Süfrədə yağlı yeməklərlə yanaşı, mütləq həzmə rahatlıq gətirən göyərti və ağartı məhsulları da olmalıdır. Ağır yeməklərdən əvvəl yüngül qida və salatlar qəbul edilməlidir.

Həkim-diyetoloqun dediyinə görə, sağlamlığı qorumaq üçün bəzi məqamlara diqqət yetirmək lazımdır: “Şüyüd, cəfəri, darçın çubuqları, az miqdarda zəncəfil, xiyarı xırda-xırda doğrayıb yeməklərə əlavə etmək məsləhətdir. Evdə hazırlanan detoks çayı axşam yeməyindən əvvəl də istifadə olunması faydalıdır, yeməkdən sonra isə detoks çayın dəmləmə variantını qəbul etmək olar. Onun qəbulu yağlı qidaların tərkibindəki xolesterinin orqanizmdən xaric olunmasını təmin edir”.

Yeməkdən dərhal sonra meyvə qəbul etmək də tövsiyə edilmir. Qidanın asan və rahat həzmi üçün yeməkdən yarım saat sonra bitki çayı içmək məsləhət görülür.

**ALLAH RƏHMƏT ELƏSİN**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Xəzər Dəniz Neft Donanması rəisinin sosial məsələlər üzrə müavini Salman Salmanova, atası

**Ramiq Salmanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi ASCO-nun İqtisadi təhlil və proqnozlaşdırma departamentinin əməkdaşı Əzizə Şərifovaya, anası

**Xanım Şərifovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Olimpiada və sülh rəmzi olan göyərçinlər

***Dünyanın möhtəşəm idman hadisələrindən olan Olimpiya oyunları rəngarəngliyi, bənzərsizliyi ilə fərqlənir. Dörd ildən bir keçirilən Olimpiya oyunları öz ritualları, mərasimləri ilə diqqət çəkir.***

Əvvəllər Olimpiya oyunlarının mərasimlərində sülh rəmzi olan göyərçinlərdən istifadə olunub. 1920-ci ildə Belçikanın Antverpen şəhərində keçirilən VII Yay Olimpiya Oyunlarında ev sahibləri göyərçinlərlə bağlı qeyri-adi üsuldan istifadə ediblər.

Belə ki, Antverpen-1920 Təşkilat Komitəsi göyərçinlərin ayağına yarış iştirakçısı olan ölkələrin milli koloritini ifadə edən lentlər bağlayıblar. Lakin 1988-ci ildə Cənubi Koreyanın Seul şəhərində keçirilən Olimpiya oyunlarında baş verən hadisə təntənəli mərasimlərdə göyərçinlərdən istifadə olunmasına son qoyub. Olimpiadanın açılış mərasimində Olimpiya odunun alovlandırılacağı çənin qıraqlarına çoxlu sayda göyərçin qonmuşdu. Məşəli alovlandıran Son Ki Çinq əlindəki odla ora yaxınlaşdıqda quşların əksəriyyəti pərvazlanaraq göyə qalxıb. Lakin onlardan bir neçəsi uçmadığından diri-diri alovda yanıb. Bu hadisədən sonra heyvansevərlər Beynəlxalq Olimpiya Komitəsinə məktubla müraciət edərək olimpiadada göyərçinlərdən istifadə olunmasını xahiş ediblər. Çıxılmaz vəziyyətdə qalan BOK bundan sonra göyərçinlərin xilas edilməsinə rəmzi məna verilməsi barədə qərar qəbul edib.

## O xal nə xaldı...

***Vaxtilə insanların üzündəki xallar gözəllik rəmzi hesab edilib. İndi isə əksər hallarda xalların bənizi korladığını düşünərək onlardan qurtulmağa can atırlar. Lakin istənilən xalı yandırmaq, kəsib atmaq olmaz. Heç bir araşdırma aparmadan xalı kəsdirmək bəzən ciddi nəticələr doğura bilər.***

Respublikanın baş dermotoveneroloqu, Azərbaycan Tibb Universitetinin dermotovenerologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Fərid Mahmudov deyib: “Bəzən həkimlər insanların istəyi ilə xalları yandırırlar. Lakin elə xallar var ki, onlar yandırıla bilməz. Həkim ilk olaraq xalın etiopatogenezini dəqiqləşdirməli, yalnız bundan sonra xalın yandırılıb-yandırılmamasına dair qərar verməlidir. Xallar aktivləşə bilirlər. Ona görə də bütün dünyada dermatoskopiya aparılır, xalın damar və sinir qidalanmaları yoxlanılır. Xalın ümumi şəklini çəkirlər. Bir il sonra təkrar şəkil çəkilir, xalın böyüyüb-böyümədiyi dəqiqləşdirilir. Əgər xal böyüyürsə və ya hansısa geyim elementi xala sürtülüb onu qıcıqlandırırsa, onda şişmə qeydə alınır. Bu halda xalın nəyəsə çevrilə biləcəyinə dair şübhələr yarandığından onları götürürlər. Təbii ki, kəsilən hər bir xalın biopsiyaya göndərilməsi məsləhətdir.

Professor bildirib ki, hazırda əsas xallar “virus papilloması” adlandırılan xallardır. Boyunda, qoltuqaltındakı ətli xallar adətən təhlükəli olmur. Onları elektrokoaqulyasiya, yaxud maye azotla götürülə bilər. Lakin elə xallar da var ki, onları yandıranda daha da çoxalır. Ona görə zədələnən xalı götürmək lazımdır. Xallı insanların Günəş şüaları altında uzun müddət gəzməsi məsləhət görülmür.

Ümumiyyətlə, bədəndə nə qədər çox xal olarsa, risk də çoxalır. Həmin şəxslər daim xallara nəzarət etməlidirlər.

Mütəxəssis dəri qulluğundan da söhbət açaraq deyib: “Hazırda bəzi bərbərxanalar infeksiya mənbəyidir. Elə bərbərlər var ki, illərlə eyni qayçı və aparatla işləyirlər. Həmin cihazları dezinfeksiya etmirlər, spirtlə silib yola verirlər. Ona görə hazırda kişilər bizə follikulit, stafilokokk, qoltuqaltı hidradenit kimi şikayətlərlə müraciət edirlər. Ailədə də bəzən diqqət edilmir, bir ülgücdən ailənin bir neçə üzvü istifadə edir.

Qadınlar arasında isə solyari vasitəsilə dərini qaraltmaq dəb halını alıb. Solyaridə dərini yandırıb qurudurlar. Bu, ən pis halda xərçəngə də gətirib çıxara bilər. Normalda insan orqanizmində immunitet mövcud olur. Lakin müxtəlif ziyanlı prosedurlar bu immuniteti zəiflədir, ona görə də xəstəlikləri müalicə etmək, problemi həll etmək mümkün olmur. Hazırda insanlar hər gün duş qəbul edirlər. Bu da düzgün deyil. Çünki dəri piy qatı buraxır, sabun isə dərini qurudur. Dəridə su olmalıdır. Hər kəsi öz bədəninə, dərisinə diqqətlə yanaşmağa, şübhəli və xoşagəlməz bir vəziyyətlə qarşılaşdıqda yalnız mütəxəssislərə müraciət etməyə çağırıram”.

## Duzun düz yeri, şəkərin öz yeri…

***Şəkər və duzun normadan artıq qəbul edilməsi insan sağlamlığına mənfi təsir göstərir. Onların qədərindən artıq istifadəsi bəzi xəstəliklərin yaranması ilə yanaşı, bir sıra xəstəliklərin fəallaşmasına da səbəb olur.***

Həkim-endokrinoloq, tibb üzrə fəlsəfə doktoru Aytən Babaxanlının dediyinə görə, insan gün ərzində 10 faizdən artıq şəkər qəbul etməməlidir: “Şəkər normadan artıq olanda hüceyrələr onu mənimsəyə bilmədiyinə görə, əsas yük insulin hormonunun üzərinə düşür. Bunun nəticəsində şəkərli diabet, piylənmə və metabolik xəstəliklərin əmələ gəlməsi üçün risk yaranır.

Bal, meyvə və tərəvəzlərin tərkibində olan təbii şəkərlərdən fərqli olaraq qənd, şəkər tozu və s. süni şəkər əvəzesicilərinin çox qəbul edilməsi insan orqanizmi üçün çox ziyandır. Həmin siyahıya içkilərin tərkibində olan kimyəvi şəkərlər də daxildir”.

Diyetoloq Ləman Süleymanova da həmin məhsulların zərərli təsirini etiraf edir: “Bəzi qazlı içkilərin tərkibində olanlar kimyəvi birləşmələrlə zənginləşən şəkər sayılır və qaraciyərə çox mənfi təsir göstərir, yorğunluq və halsızlıq əmələ gətirir. Bəzi energetik içkilərin tərkibindəki şəkər də zəhərli şəkər hesab edilir və onun qəbulu immunitetin kəskin zəifləməsinə, mədə xərçənginə və piylənmə yaranmasına səbəb ola bilər. Hər 90 pasiyentdən 20-30 nəfərini şəkəri çox qəbul edənlər təşkil edir”.

Mütəxəssislərin dediyinə görə, gün ərzində orqanizmə 5 qram, yəni bir çay qaşığı duz qəbul olunması kifayət edir. Diyetoloqun dediklərinə əsasən duzun artıq olması fəsadlara aparıb çıxarır, onun çoxluğu yüksək təzyiq və onun fonunda miokard infarktı, insult və çəkinin aşağı düşməsinə mane olan faktordur: “Genetik



modifikasiya olunmuş, uşaqların daha çox istifadə etdiyi xüsusi qablaşdırımış şirniyyatların tərkibində olan duzlar faydasız hesab edilir. Hətta mədəaltı vəzin fəaliyyətinə çox mənfi təsir göstərir, ürək-damar xəstəlikləri olanlar üçün çox zərərlidir, qanda xolesterinin artmasına səbəb olur”.

Lakin şəkər və duzdan tam şəkildə imtina etmək də düzgün deyil, çünki şəkər orqanizmdə enerji mənbəyidir. Onun azlığı əhvali-ruhiyyənin aşağı olmasına səbəb olur, emosionallıq, derpessiya və ətraf mühitə qarşı laqeydlik yaradır. Duz isə orqanizmdə damar tonusunu normada saxlayır. Arterial təzyiqin, ürək-damar, həmçinin sinir sisteminin fəaliyyətini tənzimləyir.

## Yuxusuzluq və bu problemi yaradan səbəblər



***Hər insan yaşından, cinsindən, milliyyətindən, sağlamlıq vəziyyətindən və sosial statusundan asılı olmayaraq yuxusuzluqla qarşılaşa bilər. Hətta tam sağlam və həyatda uğurlu olanlar da bəzən bu problemlə üzləşirlər. Statistikaya əsasən hazırda dünyanın hər üç sakinindən biri yuxusuzluq problemindən əziyyət çəkir.***

Bu sözləri “Caspian International Hospital”ın nevroloqu Xəyalə Məmmədova deyib.

Həkim bildirib ki, orta hesabla insana 7-9 saatlıq yuxu kifayət edir: “Lakin buna baxmayaraq 4-5 saatlıq yuxu ilə kifayətlənən unikal adamlara də rast gəlmək olar. Tamamilə yuxusuz yaşamaq mümkün deyil. Fərdi olaraq yuxunun müddəti yaşdan, sinir sistemindən və həyat tərzindən asılıdır. Yuxusuzluq tibbi dildə “insomniya” adlanır. Əsl insomniyadan o zaman söhbət gedə bilər ki, insan gündəlik həyatda özünü pis hiss etdiyindən, zəiflikdən, yorğunlundan və tez əsəbiləşməkdən şikayət etsin”.

Ümumiyyətlə heyvanlarda yuxusuzluğun görülmədiyini deyən nevroloq, bu problemin müəyyən intellektə sahib varlıqlara xas xəstəlik olduğunu qeyd edib: “Qadınlar gənclik dövrlərində daha çox yuxusuzluqla qarşılaşırlar. Bunu da bu dövrün həddən artıq emosional olması ilə əlaqələndirmək olar. Kişilərdə isə yuxusuzluğun başqa səbəbləri var və qadınlara nisbətən daha irəli yaşlarında meydana çıxır. Bu, əsasən karyera və ya ailə həyatı ilə bağlı yaranan problemdir. Bəziləri yuxusuzluğun hansısa xəstəliyin göstəricisi olduğunu düşünür. Əlbəttə ki, bu hal müxtəlif xəstəliklərlə yanaşı müşahidə oluna bilər. Bunun üçün yatan zaman diskomfort və ya ağrı hiss olunursa, ilk növbədə, əsas problem-kəskin mədə yarası, bağırsaqların iltihabı, döş qəfəsi xəstəlikləri və s. müalicə olunmalıdır. Onu da qeyd etmək lazımdır ki, yuxusuzluq daha çox nevroz və depressiya zamanı müşahidə olunur ki, bu da müalicə olunduqda keçib gedir”.

Həkim yuxusuzluqla qarşılaşan bəzi xəstələrin həkimə müraciət etməkdən qorxduqlarını bildirib: “Bunun səbəbi isə odur ki, həkim yuxugətirici dərmanlar təyin edə bilər. İnsanlar isə bu preparatlara alışacaqlarından və onlar olmadan özləri yuxuya gedə bilməyəcəklərindən qorxurlar. Bu barədə mütəxəssislərin öz fikirləri var. Onlar bildirirlər ki, qısa müddətli insomniya bir qayda olaraq stressin əlaməti kimi meydana çıxır. Belə olan halda psixoterapevtin yardımı müsbət nəticə verə bilər. Əlbəttə ki, uzun müddət davam edən stress nəticəsində yuxusuzluğun xroniki hal alma ehtimalı artır. Bu ən çox ağır ailə problemləri, iqtisadi böhranlar zamanı baş verir. Lakin belə olduqda əksər insanlarda dərhal orqanizmin yardımçı imkanları işə düşür və insan qənaətbəxş olmayan bu vəziyyətə uyğunlaşır”.

Xəyalə Məmmədova bəzən yuxusuzluğun özünün əsas xəstəlik hesab olunduğunu deyib: “Qısa müddətli yuxusuzluq zamanı həkim bir-iki gün üçün yuxugətirici təyin edə bilər. Bu zaman vərdiş əmələ gəlmir, yuxusuzluq inkişaf etmir və sağlamlığa heç bir zərər dəymir. Mütəmadi olaraq yuxu gətirici dərman preparatının 3-4 gün ərzində qəbul olunması, həqiqətən də, vərdiş yarada bilər. Lakin bundan yaxa qurtarmaq üçün bir neçə gün kifayətdir. Başqa bir məsələ psixoloji amildir. Həblərdən imtina etmək istəməyən insanı bu preparatlardan ayırmaq çox çətindir. Bu sahə üzrə mütəxəssisin fikirlərinə nəzər salsaq görərik ki, həkim səbəbsiz 2-3 həftə yuxusuzluqdan əziyyət çəkən pasiyentə gündəlik tutmağı tövsiyə edir. Gündəliyə hər gün nə vaxt yatdığını, nə vaxt oyandığını, gün ərzində nə baş verdiyini, necə yuxuya getdiyini yazmaq məsləhət görülür. İki həftə sonra məlum olur ki, yuxusuzluq işdə olan periodik xoşagəlməzliklər və narahatlıqla əlaqədardır. Ona stress əleyhinə dərman preparatı, o cümlədən yuxu gətirici təyin edilir. Bu yuxugətirici sxem üzrə deyil, konkret əsəbilik situasiyalarında qəbul edilir. Bir ay sonra problem tamamilə həll olunur və dərman preparatlarına qarşı heç bir vərdiş əmələ gəlmir”.

BAŞ REDAKTOR
Rasif İman oğlu TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 907